

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

**100 ilin qəzeti**

# ŞƏRQ QAPISI

Sayı: 28 (24.514)

*25 iyul 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Berlin səfəri: Azərbaycan-Almaniya münasibətlərində yeni strateji mərhələ



Son illərdə beynəlxalq münasibətlər sistemində baş verən geosiyasi dəyişikliklər, enerji təhlükəsizliyinin və nəqliyyat marşrutlarının strateji əhəmiyyətinin artması Azərbaycanla Avropa dövlətləri arasında əməkdaşlığa yeni məzmun qazandırıb. Xüsusilə Avropanın aparıcı iqtisadi güclərindən biri olan Almaniya ilə əlaqələrin inkişafı həm ikitərəfli münasibətlər, həm də regional sabitlik və iqtisadi əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Qarşılıqlı siyasi dialoqun intensivləşməsi, iqtisadi əlaqələrin genişlənməsi və enerji sahəsində uğurlu tərəfdaşlıq bu münasibətlərin strateji xarakter aldığını göstərir. Bu baxımdan, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Federal Kansler Fridrix Merts ilə keçirdiyi görüşlər Azərbaycan-Almaniya münasibətlərinin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Dəyişən geosiyasi reallıqlar fonunda Azərbaycan Almaniya üçün təkcə etibarlı enerji tərəfdaşı deyil, eyni zamanda Avropa ilə Asiyanı birləşdirən strateji nəqliyyat və logistika qovşağı kimi xüsusi əhəmiyyət daşıyır. Məhz bu baxımdan aparılan danışıqlarda siyasi dialoqun dərinləşdirilməsi, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, "yaşıl enerji", nəqliyyat-kommunikasiya layihələri və regional əməkdaşlıq məsələləri əsas müzakirə mövzularını təşkil edib.

Səhifə ⇨ 2

# Azərbaycan xalqı əbədi olaraq qürurlu xalq kimi, qalib xalq kimi yaşayacaq




Şuşada keçirilən "Sülhün təşviqində medianın missiyası: həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycan xalqının keçdiyi tarixi yolun gələcək nəsillər üçün ən böyük dərs olduğunu vurğulayıb. Dövlət başçısı bildirib: ***"Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi olaraq qürurlu xalq kimi, qalib xalq kimi yaşasın…"***

Prezident qeyd edib ki, milli kimlik və milli ləyaqət hər bir xalqın ən böyük sərvətidir. Müvəqqəti məğlubiyyət yaşamaq mümkündür, lakin xalq heç vaxt əyilməməli, işğalla barışmamalı və gələcək nəsillərə Vətən sevgisini, mübarizə əzmini aşılamalıdır. Azərbaycanın gələcək inkişafının da məhz Vətənə bağlı, iradəli və güclü gənclərdən asılı olduğunu vurğulayan dövlət başçısı onların ölkəmizin uğurlarını davam etdirəcəyinə əminliyini ifadə edib. Forumdakı çıxışında Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri və regionda yaranmış yeni reallıqlar barədə mühüm mesajlar səsləndirib. O bildirib ki, Azərbaycan suverenliyini bərpa etmək üçün gücdən istifadə etsə də, məqsədinə çatdıqdan sonra dayanmağı bacarıb: ***"Silahlı qarşıdurmanın ən qızğın mərhələsi başa çatdıqdan sonra ən vacib məqamlardan biri məhz vaxtında dayanmağı bacarmaqdır. Bu, asan deyil və biz bunu yaxşı anlayırıq. Biz 30 il qəlbimizdə bu yara ilə yaşamışıq. Lakin dayanmalı olduğumuz anda dayandıq".***

Səhifə ⇨ 3

# Berlin səfəri: Azərbaycan-Almaniya münasibətlərində yeni strateji mərhələ



## Bakı-Berlin əməkdaşlığı daha sistemli və uzunmüddətli müstəviyə daşınır

(əvvəli 1-ci səhifədə)

Səfərin ən mühüm nəticəsi Prezident İlham Əliyev və Almaniya Federal Kansleri Fridrix Merts tərəfindən "Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün Strateji Gündəliyə dair Birgə Bəyannamə"nin imzalanması oldu. Tədbirdə, həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması və fəaliyyətinə dair Birgə Bəyannamə də imzalandı. Bu sənədlər iki ölkə arasında münasibətlərin strateji məzmununun daha da dərinləşdiyini və əməkdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu təsdiqləyir.

Strateji Gündəliyə dair Birgə Bəyannamə siyasi dialoqun intensivləşdirilməsi, qarşılıqlı etimada əsaslanan əməkdaşlığın möhkəmləndirilməsi və ikitərəfli münasibətlərin uzunmüddətli inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Sənəd iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, "yaşıl enerji", sənaye, nəqliyyat-logistika, rəqəmsal transformasiya, innovasiya, elm, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması isə biznes dairələri arasında institusional əməkdaşlığı gücləndirəcək, qarşılıqlı investisiyaların artmasına, birgə istehsal və sənaye layihələrinin həyata keçirilməsinə, kiçik və orta sahibkarlığın inkişafına, yeni texnologiyaların və qabaqcıl idarəetmə təcrübəsinin tətbiqinə töhfə verəcək. Bu platforma sahibkarlar arasında birbaşa əlaqələrin genişlənməsini sürətləndirəcək, yeni investisiya layihələri və ticarət tərəfdaşlıqlarının formalaşmasını təşviq edəcək.

İmzalanan sənədlər, eyni zamanda Azərbaycanın Avropa İttifaqının aparıcı iqtisadi güclərindən biri olan Almaniya ilə əlaqələrinin daha da dərinləşdiyini göstərir. Bu əməkdaşlıq Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, Orta Dəhlizin inkişafı, dayanıqlı iqtisadi artımın təmin olunması və regional nəqliyyat-kommunikasiya imkanlarının genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Berlində əldə olunan razılaşmalar Azərbaycan-Almaniya münasibətlərinin gələcək inkişafı üçün möhkəm siyasi və iqtisadi zəmin formalaşdırmaqla yanaşı, qarşılıqlı maraqlara xidmət edən yeni əməkdaşlıq perspektivləri açır.

Prezident İlham Əliyev Federal Kansler Fridrix Merts ilə mətbuata bəyanatında da imzalanmış Birgə Bəyannamənin münasibətlərin gələcək inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq ikitərəfli gündəliyin kifayət qədər geniş olduğunu bildirdi:

Sitat: ***"Əminəm ki, bu gün imzalanmış sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir. İkitərəfli gündəliyimiz kifayət qədər genişdir. Biz bu barədə Sizinlə həm təkbətək görüşdə, həm də geniş tərkibdə görüş əsnasında fikir mübadiləsi aparmışıq. Almaniya Avropa İttifaqının aparıcı ölkəsi kimi Cənubi Qafqazda öz təsirini artırmaqdadır. Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir".***

Federal Kansler Fridrix Merts isə Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasını tarixi hadisə kimi dəyərləndirərək bunun Cənubi Qafqazda uzunmüddətli sabitliyin formalaşması üçün mühüm imkan yaratdığını bildirdi. Almaniya və Avropa İttifaqının bölgədə davamlı sülhün bərqərar olmasında maraqlı olduğunu vurğulayan Kansler qeyd etdi ki, iqtisadi əməkdaşlığın daha da genişlənməsi üçün sabitlik əsas şərtdir: "Bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır. Çox şadam ki, ölkələrimiz arasında münasibətlər yüksələn xətlə inkişaf edir. 2025-ci ilin yazında Prezident Ştaynmayer Azərbaycana səfər etmiş ilk alman dövlət başçısı oldu. Bu il, həmçinin parlamentlərimiz arasında intensiv mübadilələr oldu. Bu gün Birgə Bəyannaməni imzalamaqla biz ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsinin təməl daşını qoyduq".

Beləliklə, Berlində imzalanan sənədlər və əldə olunan razılaşmalar Azərbaycan-Almaniya münasibətlərinin keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olduğunu göstərir. Strateji Gündəliyə dair Birgə Bəyannamə və Biznes Şurasının yaradılması Bakı-Berlin əməkdaşlığını daha sistemli və uzunmüddətli müstəviyə daşıyaraq siyasi dialoqdan iqtisadi tərəfdaşlığa qədər geniş sahələri əhatə edən yeni əməkdaşlıq mərhələsinin əsasını qoyur.

## Azərbaycan-Almaniya strateji tərəfdaşlığında yeni geosiyasi reallıq

Bu gün Azərbaycan Almaniya üçün yalnız enerji ixrac edən ölkə deyil. Ölkəmiz, eyni zamanda Avropa ilə Mərkəzi Asiya arasında mühüm logistika qovşağı, regional sabitliyin əsas iştirakçısı və Cənubi Qafqazda sülh gündəliyini irəli aparan dövlət kimi çıxış edir. Azərbaycanın Orta Dəhliz üzrə artan rolu, müasir nəqliyyat infrastrukturu və geniş tranzit imkanları Almaniyanın iqtisadi maraqları ilə üst-üstə düşür. Bu isə ikitərəfli münasibətlərin artıq təkcə enerji sahəsi ilə məhdudlaşmadığını göstərir.

Bununla belə enerji əməkdaşlığı tərəfdaşlığın əsas strateji istiqamətlərindən biri olaraq qalır. Xüsusilə bu ildən Azərbaycanın Almaniyaya təbii qaz ixracına başlaması Avropanın enerji mənbələrinin şaxələndirilməsi siyasətinə mühüm töhfə verməklə yanaşı, iki ölkə arasında qarşılıqlı etimadı və uzunmüddətli əməkdaşlığı daha da möhkəmləndirir. Hazırda Azərbaycan Almaniya da daxil olmaqla Avropa İttifaqına üzv 10 ölkəyə təbii qaz ixrac edir ki, bu da ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu bir daha təsdiqləyir. Bununla yanaşı, Azərbaycanın "yaşıl enerji" istehsalı və ixracı istiqamətində həyata keçirdiyi layihələr əməkdaşlığın gələcək inkişafı üçün yeni perspektivlər açır. Beləliklə, Azərbaycan həm ənənəvi enerji resursları, həm də bərpa olunan enerji potensialı ilə Avropanın etibarlı enerji tərəfdaşı mövqeyini daha da möhkəmləndirir.

Berlin səfəri ikitərəfli iqtisadi münasibətlərin inkişafına da yeni impuls verib. Hazırda Azərbaycanda 200-dən çox Almaniya şirkətinin fəaliyyət göstərməsi ölkənin investisiya mühitinə olan etimadın göstəricisidir. Strateji gündəlik çərçivəsində qarşılıqlı investisiyaların artırılması, sənaye, yüksək texnologiyalar, rəqəmsallaşma və "yaşıl iqtisadiyyat" sahələrində əməkdaşlığın genişləndirilməsi hər iki ölkənin iqtisadi maraqlarına cavab verir.

Mətbuata bəyanatlarda da vurğulandığı kimi, regional təhlükəsizlik Azərbaycan-Almaniya əməkdaşlığının mühüm istiqamətlərindən biridir. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh prosesində əldə olunan irəliləyiş Cənubi Qafqazın uzunmüddətli inkişafı üçün yeni imkanlar yaradır. Münaqişə risklərinin azalması nəqliyyat dəhlizlərinin açılması, ticarətin genişlənməsi və xarici investisiyaların artması üçün əlverişli şərait formalaşdırır. Bu baxımdan, Almaniyanın bölgədə sabitliyin möhkəmləndirilməsinə verdiyi siyasi dəstək həm Avropanın, həm də regionun maraqlarına xidmət edir.

Prezident İlham Əliyev Federal Kansler Fridrix Merts ilə mətbuata bəyanatında Ermənistanla münasibətlərin normallaşması istiqamətində əldə olunan nəticələri, Azərbaycanın sülh gündəliyinə sadiqliyini və münaqişədən sonrakı dövrdə atdığı praktiki addımları diqqətə çatdıraraq bildirdi: ***"Uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması, Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və imzası ilə Birgə Bəyannamənin imzalanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu. Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi. Bu gün Azərbaycan tərəfindən təchiz edilmiş benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə çox böyük töhfədir. Xüsusilə nəzərə alsaq ki, bu gün neft məhsullarının ixracı və idxalı ilə bağlı bir çox problemlər müəyyən səbəblərə görə mövcuddur və eyni zamanda, Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərinin göndərilməsi də artıq geniş vüsət alıb. Bu günə qədər 40 min tondan çox tranzit yüklər Azərbaycan ərazisindən keçib".***

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər, əldə olunan razılaşmalar və imzalanan sənədlər göstərir ki, Azərbaycan-Almaniya münasibətləri keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olur. Əməkdaşlıq artıq təkcə ikitərəfli siyasi və iqtisadi əlaqələrlə məhdudlaşmır. Bu tərəfdaşlıq Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, Orta Dəhlizin və Avrasiya nəqliyyat marşrutlarının inkişafı, eləcə də Cənubi Qafqazda dayanıqlı sülh və sabitliyin təşviqi baxımından mühüm strateji məzmun kəsb edir.

Berlin görüşləri bir daha təsdiqlədi ki, Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, regional təşəbbüslərin fəal iştirakçısı və qlobal proseslərə töhfə verən mühüm geosiyasi aktor kimi mövqeyini ardıcıl şəkildə gücləndirir. Bu baxımdan, Berlin səfəri yalnız ikitərəfli münasibətlərin inkişafı ilə deyil, həm də Azərbaycanın Avropa ilə əməkdaşlığının yeni prioritetlərini müəyyənləşdirən, uzunmüddətli tərəfdaşlığın siyasi və iqtisadi əsaslarını daha da möhkəmləndirən mühüm hadisə kimi qiymətləndirilə bilər.

**Nail ƏSGƏROV**

# Azərbaycan xalqı əbədi olaraq qürurlu xalq kimi, qalib xalq kimi yaşayacaq

*(əvvəli 1-ci səhifədə)*

Bu fikirlər ötən əsrin sonlarında Azərbaycanın üzləşdiyi ağır sınaqları bir daha xatırladır. 1990-1993-cü illərdə ölkədə hökm sürən siyasi pərakəndəlik, idarəçilikdə yol verilən ciddi səhvlər və daxili qarşıdurmalar Birinci Qarabağ müharibəsində məğlubiyyətə zəmin yaratdı. Xalq isə bütün çətinliklərə baxmayaraq, müstəqilliyini və torpaqlarını qorumaq əzmindən dönmədi. Məhz belə bir dövrdə xalqın çağırışına cavab verən Ulu Öndər Heydər Əliyev Bakıya qayıdaraq ölkədə siyasi sabitliyin bərpasına nail oldu. Onun hakimiyyətə qayıdışı ilə dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində ardıcıl addımlar atıldı, ordunun formalaşdırılması sürətləndirildi və Azərbaycanın gələcək Zəfərinin möhkəm təməli qoyuldu.




### Əbədi qələbə

Hakimiyyətə vəzifə naminə deyil, xalqa xidmət etmək üçün gəldiyini dəfələrlə bəyan edən Ulu Öndər Heydər Əliyev bunu fəaliyyəti ilə də sübuta yetirdi. O, ömrünün sonunadək xalqına sədaqətlə xidmət etdi, tamamlaya bilmədiyi ən böyük arzusunun gerçəkləşəcəyinə isə inanaraq bu missiyanı gələcəyin Müzəffər Ali Baş Komandanına etibar etdi.

İllərlə həsrətini çəkdiyimiz o tarixi gün nəhayət yetişdi. Azərbaycan əsgərinin qəhrəmanlığı, rəşadəti və tökdüyü qan hesabına tariximizin şanlı səhifələri yenidən yazıldı. Ulu Öndərin vaxtilə söylədiyi: ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”*** sözləri gerçəyə çevrildi.

44 gün davam edən Vətən müharibəsində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu zəfər təkcə hərbi gücümüzün deyil, həm də xalqın milli birliyinin, dövlətə və Vətənə sədaqətinin, tarixi ədalətə inamının təntənəsi idi. Məhz bu birlik Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etdi və bütün dünyaya göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

Bu möhtəşəm qələbənin təməlində xalqın sarsılmaz həmrəyliyi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi iradəsi, Azərbaycan Ordusunun rəşadəti və sonsuz Vətən sevgisi dayanırdı.

### Bir çox ölkələr üçün nümunə sayılan “Böyük Qayıdış” proqramı

Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə qarşılaşdığımız mənzərə illərlə bu torpaqlara qarşı həyata keçirilən vandalizmin miqyasını bütün dünyaya göstərdi. Daşı daş üstə qalmayan şəhər və kəndlərdə nə yaşayış evləri, nə də kölgəsinə sığınacaq bir ağac qalmışdı. Ermənilər bu torpaqları viran qoyaraq azərbaycanlıların bir daha doğma yurdlarına qayıda bilməyəcəyini düşünürdülər. Lakin onların hesablamadığı bir həqiqət var idi – Azərbaycan xalqının sarsılmaz iradəsi.

Prezident İlham Əliyevin dediyi kimi: ***“Ermənilər bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. O torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq”.***

Qələbədən sonra azad edilmiş ərazilərdə yeni inkişaf mərhələsinə başlanıldı. Bu mərhələ genişmiqyaslı bərpa-quruculuq işləri, dayanıqlı inkişaf hədəfləri və “Böyük Qayıdış” proqramının ardıcıl icrası ilə xarakterizə olunur. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək müəyyən etdiyi beş Milli Prioritetdən biridir. Bu prioritetlər əsasında hazırlanmış “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” ölkənin yeni inkişaf mərhələsinin əsas istiqamətlərini müəyyənləşdirir. Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş “İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış üzrə I Dövlət Proqramı”nın Fəaliyyət Planı isə postmünaqişə dövründə həyata keçirilən bərpa və məskunlaşma prosesinin institusional əsasını formalaşdırıb.

“Böyük Qayıdış” Konsepsiyası uzun illər doğma yurdlarından didərgin düşmüş insanların təhlükəsiz, ləyaqətli və davamlı şəkildə öz evlərinə qayıdışını təmin etməyə yönəlmiş dövlət siyasətidir. Bu məqsədlə azad olunmuş ərazilərdə yollar, elektrik, su, qaz və rabitə infrastrukturu yenidən qurulur, müasir yaşayış məntəqələri salınır, “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri həyata keçirilir.

Proqram təkcə yaşayış məntəqələrinin bərpasını deyil, həm də iqtisadi və sosial həyatın dirçəldilməsini əhatə edir. Məşğulluğun artırılması, təhsil və səhiyyə xidmətlərinin bərpası, sahibkarlığın təşviqi, investisiya mühitinin yaxşılaşdırılması və kənd təsərrüfatının inkişafı üçün tətbiq olunan stimullaşdırıcı mexanizmlər azad edilmiş ərazilərin uzunmüddətli inkişafını təmin etməyə xidmət edir. Məhz buna görə də “Böyük Qayıdış” bu gün postmünaqişə bərpasının ən uğurlu modellərindən biri kimi beynəlxalq səviyyədə də maraq doğurur.

Bu proqram həm də məşğulluğun artırılması, təhsil və səhiyyə xidmətlərinin bərpası, eləcə də iqtisadi aktivliyin stimullaşdırılması ilə müşayiət olunur. Dövlət tərəfindən sahibkarlığın təşviqi, investisiya mühitinin yaxşılaşdırılması və kənd təsərrüfatının inkişafı üçün müxtəlif güzəştlər tətbiq edilir. Bu yanaşma həmin ərazilərin uzunmüddətli iqtisadi dayanıqlılığını təmin etməyə hesablanıb.

### Yüksək maliyyə vəsaiti və dövlətin möhkəm iradəsi

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış üzrə I Dövlət Proqramının icrası Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu prosesin əsas dayaqları dövlətin qətiyyətli siyasi iradəsi və bərpa-quruculuq işlərinə ayrılan böyük maliyyə resurslarıdır. 2020-2025-ci illərdə Qarabağ və Şərqi Zəngəzurun bərpası məqsədilə dövlət büdcəsindən 22 milyard manat vəsait ayrılıb. 2026-cı ildə bu məqsədlə daha 3,5 milyard manatın ayrılması nəzərdə tutulub. Beləliklə, altı il ərzində bölgənin yenidən qurulmasına yönəldilən dövlət vəsaiti 25,5 milyard manata çatacaq. Quruculuq işlərinin sürətləndirilməsində əsas şərtlərdən biri də ərazilərin minalardan təmizlənməsidir. Bu istiqamətdə işlər ardıcıl şəkildə davam etdirilir. Təkcə 2025-ci ildə 69,2 min hektar ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Ümumilikdə isə 2020-ci ildən bəri 249 min hektara yaxın sahə təhlükədən azad olunub. Cari ildə daha 65 min hektardan artıq ərazinin təmizlənməsi planlaşdırılır. Bu həm tikinti-quruculuq işlərinin genişlənməsinə, həm də kənd təsərrüfatına yararlı torpaq sahələrinin dövriyyəyə qaytarılmasına imkan yaradır.

Son beş ildə həyata keçirilən infrastruktur layihələrinin miqyası görülən işlərin əhatəsini aydın göstərir. Bu müddətdə ümumi uzunluğu 70 kilometr olan tunellər inşa edilib, tikintisi nəzərdə tutulan 500 körpünün 435-i istifadəyə verilib. Eyni zamanda elektrik stansiyaları, su təchizatı sistemləri, su anbarları, yaşayış evləri, məktəblər, xəstəxanalar tikilib, üç beynəlxalq hava limanı istifadəyə verilib, yeni dəmir yolu xətləri çəkilib.

Hazırda işğaldan azad edilmiş ərazilərdə 85 mindən çox insan yaşayır və müxtəlif sahələrdə əmək fəaliyyəti ilə məşğuldur. Artıq 40-dan çox yaşayış məntəqəsində həyat bərpa olunub, sakinlərin rahat yaşayışı üçün zəruri sosial və kommunal infrastruktur yaradılıb. Bununla yanaşı, 8 şəhərin Baş planı, 3 şəhərin Müfəssəl planı və 101 yaşayış məntəqəsi üzrə şəhərsalma əsaslandırması təsdiq edilib. Azad edilmiş ərazilərdə həyata keçirilən bu genişmiqyaslı layihələr göstərir ki, Azərbaycan postmünaqişə dövründə özünəməxsus şəhərsalma və inkişaf modeli formalaşdırıb. Dünyanın bir sıra ölkələrində plansız urbanizasiya problemləri yaşandığı halda, Azərbaycan dağıdılmış torpaqlarda belə müasir, funksional və dayanıqlı yaşayış məkanları qurmaqla nümunə ortaya qoyur.

Bu gün Zəfər yolu ilə Şuşaya üz tutan, Füzulidə aparılan yenidənqurma işlərini izləyən, Ağalıda bərpa olunan həyatı görən hər bir azərbaycanlı bu torpaqlar uğrunda canından keçən şəhidlərimizi dərin ehtiramla yad edir, Qarabağın və Şərqi Zəngəzurun dağlarını yararaq doğma yurdlara yol çəkən insanların zəhmətini yüksək qiymətləndirir. Qarabağ Universitetində təhsil alan gənclər isə Vətənə bağlı, mətin, iradəli və bilikli vətəndaşlar kimi yetişərək Azərbaycanın uğurlarını davam etdirmək əzmi ilə çalışırlar. Bu isə Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikrin – Azərbaycanın əbədi olaraq qürurlu və qalib xalq kimi yaşayacağına inamın ən bariz təzahürüdür.

**Ramiyə ƏKBƏROVA**



# Uğurlu xarici siyasət, genişlənən diplomatik əlaqələr



## Prezident İlham ƏLİYEV:

***“Bizim ikitərəfli əlaqələrimiz genişlənir, güclənir, tərəfdaş ölkələrin sayı artır. Azərbaycan beynəlxalq arenada öz mövqeyini müdafiə etmək iqtidarındadır. Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq olan bir ölkədir. Çünki sözümüz də, əməlimiz də birdir. Azərbaycan etibarlı tərəfdaşdır. Bizim xarici siyasətimiz daxili siyasətin məntiqi davamıdır.”***

### *Naxçıvandan dünyaya*

Heydər Əliyev siyasi kursunun davamçısı Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Azərbaycanı dünyada etibarlı və strateji tərəfdaşa çevirib. Məhz bu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq təşkilatlarda söz sahibinə çevrilib. Buna əsas səbəb isə ölkəmizin xarici siyasətinin prinsipiallığı və müstəqilliyi ilə seçilməsidir. Əlbəttə ki, güclü siyasi iradənin mövcudluğu bunu labüd edir. Bu siyasi iradə özünü həm daxili, həm də xarici siyasət məsələlərində göstərir. Eyni zamanda ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək.

Dövlətimizin diplomatik əlaqələrinə diqqət yetirəndə görürük ki, 1991-ci ildə müstəqilliyə qovuşan Azərbaycanın ilk diplomatik əlaqə qurduğu dövlət qardaş Türkiyədir. Türkiyə ilə diplomatik əlaqələrin qurulmasında həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyevin rolu danılmazdır. Muxtar respublikaya rəhbərlik etdiyi dövr ərzində Heydər Əliyevin qonşularla əsasını qoyduğu xarici əlaqələr bölgəni fəlakətdən xilas edən amillərdən oldu. 1991-ci il sentyabrın 3-də Ulu Öndərin Naxçıvan Ali Məclisinin Sədri seçilməsi qonşularla, o cümlədən Türkiyə ilə əlaqələrin qurulmasına meydan açdı. Naxçıvanla Türkiyə arasında həmin ilin oktyabrında müvəqqəti körpü salındı və bu, qardaş ölkə ilə əlaqələrin genişlənməsində önəmli rol oynadı.

Dahi rəhbərin Azərbaycan Prezidenti seçilməsi ilə Azərbaycanın diplomatik əlaqələri şaxələndi. Əlbəttə ki, dünya dövlətlərinin həmin dövrdə məğlub, zəif dövlət olan Azərbaycana marağının artmasının əsas səbəbi sovetlər birliyinin rəhbərlərindən biri olan siyasət dahisi Heydər Əliyevin bu dövlətə başçılıq etməsi idi. Onun şəxsiyyətinə və siyasi savadına qibtə edən bir çox dövlət başçısı bunu Heydər Əliyevlə görüşlərdə dilə gətirirdi. Onlar Heydər Əliyevlə görüşməkdən şərəf duyduqlarını bildirir, şəxsiyyətinə heyran qaldıqlarını deyirdilər. Həmin dövrdə dahi şəxsiyyətin dövlətimizin başçısı olması tarixi zərurət və bu xalqın ən böyük xoşbəxtliyi idi. 1992-ci ildə Türkiyə Respublikası ilə başlayan diplomatik yolda irəliləyən Azərbaycan 2003-cü ildə artıq 146 dövlət ilə dostluq münasibəti qurmuş və beynəlxalq səviyyəli müqavilələr bağlamışdı.

### *Çoxtərəfli diplomatiya*

Balanslaşdırılmış diplomatiya siyasəti sayəsində ölkəmiz müxtəlif siyasi və iqtisadi mərkəzlərlə qarşılıqlı faydalı münasibətlər qurmağa nail olub. Dövlətimiz həm Avropa İttifaqı, həm Türk Dövlətləri Təşkilatı, həm İslam Əməkdaşlıq Təşkilatı, həm də digər beynəlxalq qurumlarla fəal əməkdaşlıq edir. Bu isə ölkənin milli maraqlarının qorunmasına və xarici siyasətdə müstəqil qərarvermə imkanlarının genişlənməsinə şərait yaradıb. Beynəlxalq hüquq Azərbaycanın xarici siyasət konsepsiyasının əsas sütunlarından biridir. Prezident İlham Əliyev bu il Şuşada keçirilən Şuşa Qlobal Media Forumundakı çıxışında bir daha bəyan etdi ki, ölkəmiz bütün dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət bəsləyir. Dövlət siyasətimizdə beynəlxalq münasibətlərdə ikili standartlar yolverilməzdir. Beynəlxalq hüquq normaları bütün dövlətlərə eyni şəkildə tətbiq olunmalıdır. Bu prinsip Azərbaycanın uzun illər ərzində üzləşdiyi işğal problemi fonunda xüsusi əhəmiyyət daşıyır.

### *Uğurlu xarici siyasət kursu diplomatik əlaqələri genişləndirir*

Dahi rəhbərin layiqli davamçısı İlham Əliyevin Prezident seçilməsi ilə Azərbaycan diplomatiyasının uğurları artmağa və daha da möhkəmlənməyə başladı. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır, qlobal əhəmiyyətli layihələrin əsas iştirakçılarından biri kimi çıxış edir. Rəsmi Bakı hər zaman beynəlxalq hüquqa və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq formatlarına üstünlük verir. Ölkəmiz heç bir hərbi-siyasi blokun təsirində deyil və başqa dövlətlərin maraqlarının alətinə çevrilmir. Müstəqil xarici siyasət kursu Azərbaycanın qlobal diplomatiyada çəkisini artırıb və uzunmüddətli edib.

### *Sabitlik xarici siyasəti şərtləndirən əsas amildir*

Tarixin bütün dövrlərində sübut olunub ki, sabitlik hər bir dövlət və xalq üçün olduqca vacibdir və önəmlidir. Dünyamızda isə sabitlik yolunda irəliləməyi hər ölkə bacarmır. Bu gün dünyada baş verən bir çox çaxnaşmalar fonunda Azərbaycanda sabitliyin hökm sürməsi dövlətimizin və xalqımızın ən böyük uğurlarından biridir. Ölkəmiz həm də makroiqtisadi baxımdan davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə kimi tanınır. Dünyada baş verən iqtisadi böhranlar da respublikamızın iqtisadi və sosial sabitliyinə xələl gətirə bilmədi və Azərbaycan bütün sınaqlardan alnıaçıq çıxdı.

Prezident İlham Əliyevin fikirləridir: ***“Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu bizim böyük nailiyyətimizdir”.*** 2020-ci ilə kimi ölkədəki sabitliyə təhdid yaradan əsas problem torpaqlarımızın işğalda olması və Qarabağdakı erməni separatizmi idi. Vətən müharibəsində və antiterror tədbirlərində qazanılan zəfərlərdən sonra bütün bu təhdidlər tam aradan qaldırıldı. Ərazi bütövlüyümüzün bərpası ilə Azərbaycan torpaqlarının hər bir nöqtəsində sabitlik bərqərar olundu. 200 ildən sonra Azərbaycan torpaq iddialarına son nöqtəni qoydu və Qarabağ adlı problem əbədi olaraq həll edildi. Biz Qafqazda sülhü bərqərar edən xalq kimi adımızı tarixə yazdıq.

Ölkə başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin döyüş meydanındakı cəsarətli addımları diplomatik masadakı qələbəni təmin etdi. Dövlət başçısının dediyi kimi: ***“Biz hamımız gördük ki, bəli, ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik”.*** Ətrafımızda baş verən hadisələr fonunda isə Azərbaycan dövləti özünün sabitliyini və inkişafını uğurla təmin edir. Biz daxili sabitliyə nail olmuşuq və onu dövlət-xalq-ordu birliyi, Vətən, torpaq sevgisi ilə qazanmışıq. Elə bütün bunların nəticəsidir ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır, dünyanın ən böyük dövlətləri belə Azərbaycana sərmayə qoymaqdan, diplomatik əlaqə qurmaqdan çəkinmir. Çünki Azərbaycan sülhsevər dövlətdir və dünya nizamının yaxşılaşması üçün əlindən gələni edir.

Azərbaycan artıq orta gücə çevrilib. Uğurlu neft strategiyası, düzgün və müstəqil qərarlar sayəsində ölkəmiz beynəlxalq tədbirlərin keçirildiyi məkan olub. Azərbaycan işğaldan azad etdiyi torpaqları da gülüstana döndərərək Füzuli Beynəlxalq Hava Limanını Qarabağın dünyaya açılan qapısına çevirib. Uzun illər işğalda qalan Şuşa azad edilərək dirçəldilib beynəlxalq tribuna olub. Hər il dünya səviyyəli tədbirlərə ev sahibliyi edən Azərbaycan İslam həmrəyliyinin möhkəmləndirilməsi və gücləndirilməsi istiqamətində göstərdiyi daimi səylər çərçivəsində 2027-ci ildə İslam Əməkdaşlığı Təşkilatının (İƏT) Dövlət və Hökumət Başçılarının 16-cı Zirvə Görüşünə, həmçinin İƏT İnformasiya Nazirlərinin Konfransına ev sahibliyi edəcək.

Bu gün qalib Azərbaycanın haqq səsi dünyanın hər yerində eşidilir. Vaxtilə anti-Azərbaycan mövqeyində dayanan dövlətlər belə artıq Azərbaycana dostluq əli uzadır. Çünki hər kəs görür ki, dövlətimizin xarici siyasəti daxili siyasətimizin davamıdır. Xalqımız əmindir ki, uğurlu siyasəti ilə Vətənimizi zəfərdən-zəfərə aparan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıdakı illərdə də dövlətimizi daha möhtəşəm uğurlara qovuşduracaq.

✍ **Ramiyə ƏKBƏROVA**

# Ali Məclis sədrinin birinci müavini sərəncamlar imzalayıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun 22 iyul 2026-cı il tarixdə imzaladığı sərəncamla Xaliq Yunis oğlu Babayev "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin müavini vəzifəsindən azad edilib.

Həmçinin eyni tarixli digər bir sərəncamla isə Vüsal Hicran oğlu Muradov "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin müavini təyin edilib. "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinə sədr təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin müavini Vüsal Hicran oğlu Muradova həvalə olunub.

23 iyul 2026-cı il tarixli sərəncama əsasən Novruzova İlhamə Tofiq qızı "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini vəzifəsindən azad edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaş qəbullarının cədvəli

| S/n | Qəbulu keçiriləcək mərkəzi icra hakimiyyəti orqanının rəhbəri | Qəbulun keçiriləcəyi şəhər, rayon | Qəbulun keçiriləcəyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri** Rafail Quliyev | Kəngərli | 04.08.2026 |
| 2. | **"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini müvəqqəti icra edən** Nihad Qurbanov | Babək | 05.08.2026 |
| 3. | **Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri** Xanlar Mustafayev | Kəngərli | 06.08.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Rəşadət Nabatov | Culfa | 06.08.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri** Kazım Hüseynəliyev | Ordubad | 11.08.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikasının təhsil naziri** Elxan Nəcəfov | Sədərək | 11.08.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Məcid Seyidov | Sədərək | 20.08.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Həsən Seyidov | Şərur | 21.08.2026 |
| 9. | **Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru** Vüqar Babayev | Şərur | 27.08.2026 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 11$^{00}$-da başlayır.**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib



İyulun 20-də Naxçıvan Muxtar Respublikası prokurorunun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatı və tabe rayon (şəhər) prokurorluqlarının əməkdaşlarının iştirakı ilə 2026-cı ilin birinci yarımili ərzində görülən işlərə dair əməliyyat müşavirəsi keçirilib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğundan verilən məlumata görə, müşavirə iştirakçıları tərəfindən əvvəlcə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev müasir prokurorluq orqanlarının formalaşmasında və inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətlərindən, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarına diqqət və qayğısından bəhs edib, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə ölkə başçısı tərəfindən uğurlu sosial-iqtisadi inkişafın təmin edildiyini, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm Dövlət proqramlarının icra edildiyini vurğulayıb.

Sonra Naxçıvan Muxtar Respublikasında cinayətkarlığa qarşı mübarizə, qanunların icra və tətbiq olunmasına nəzarət, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti, əldə olunmuş nailiyyətlər, yol verilmiş nöqsanlar müzakirə edilib.

Naxçıvan Muxtar Respublikasının prokuroru 2026-cı ilin I yarımili ərzində prokurorluq və digər hüquq-mühafizə orqanlarının istintaq, təhqiqat və əməliyyat qurumları tərəfindən görülmüş işlərin vəziyyəti barədə ətraflı məruzə ilə çıxış edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə muxtar respublikada qeydə alınmış cinayət hadisələrinin sayının azaldığını, daxili işlər, eləcə də dövlət təhlükəsizlik orqanları ilə birgə səmərəli əməkdaşlıq nəticəsində cinayətlərin açılmasının 96,2% təşkil etdiyini vurğulayaraq qeydə alınmış cinayətlərin sayının azalmasında mühüm rol oynayan hüquqi-maarifləndirmə, qanunvericiliyin izahı və sair profilaktiki tədbirlərin əhəmiyyətindən bəhs edib, həm prokurorluq, həm də digər hüquq-mühafizə orqanlarında təhqiqat və istintaqın keyfiyyətinin daha da artırılması istiqamətində zəruri tədbirlərin görülməsinin vacibliyini qeyd edib.

Həmçinin qeyd olunmuşdur ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikasının prokurorluq, daxili işlər, gömrük və digər istintaq qurumları tərəfindən 64 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün müvafiq məhkəmələrə göndərilib, muxtar respublikanın prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə dövlətə, hüquqi və fiziki şəxslərə vurulmuş 599 min manat məbləğində maddi ziyanın 484 min 204 manatı və ya 81%-nin ödənilməsi təmin edilib.

Bununla yanaşı, çıxışda digər fəaliyyət istiqamətləri kimi prokurorluq orqanlarında vətəndaş qəbulu və müraciətlərə baxılmasının Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən xüsusi diqqətdə saxlanıldığı qeyd edilib.

Həmçinin müşavirədə prokurorluq əməkdaşları tərəfindən xidməti, icra və əmək intizamı qaydalarına, "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi"nə dönmədən əməl edilməsi bir daha tələb edilib.

Müşavirədə məruzə ilə çıxış edən Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, müvafiq şöbə rəisləri və tabe rayon, şəhər prokurorları prokurorluq və digər hüquq-mühafizə orqanlarının istintaq və təhqiqat qurumlarında cinayət işləri və araşdırma materialları üzrə səmərəliliyin və keyfiyyətin artırılması, eləcə də yol verilmiş nöqsanların aradan qaldırılması istiqamətində bütün zəruri tədbirlərin görüləcəyini bildiriblər.

Məruzə ətrafında çıxışlar və müzakirələrdən sonra əməliyyat müşavirəsinə yekun vuran Naxçıvan Muxtar Respublikasının prokuroru ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin artırılması istiqamətində muxtar respublikanın prokurorluq orqanlarının bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Naxçıvanda "Çempion ailələr" layihəsi çərçivəsində intellektual yarış keçirilib



23 iyul tarixdə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən "Naxçıvan Saray"da "Çempion ailələr" layihəsi çərçivəsində "Fibonaççi" intellektual yarışı keçirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, yarışın keçirilməsində məqsəd gənclər və ailələr arasında ailə dəyərlərinin təbliği, milli-mənəvi ənənələrin möhkəmləndirilməsi, ailələrin asudə vaxtının səmərəli təşkili, sağlam həyat tərzinin təşviqi, həmçinin ailə üzvləri arasında əməkdaşlığın və sosial aktivliyin artırılmasıdır.

Tədbirə başlamazdan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, məlum olduğu kimi, ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət ailə siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, ailə institutunun möhkəmləndirilməsi, gənclərdə sağlam ailə dəyərlərinin formalaşdırılması istiqamətində ardıcıl işlər görülür.

Həmçinin Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə dəyərlərinin möhkəmləndirilməsi məqsədilə milli genefondumuza mənfi təsir göstərə biləcək qohum evliliklərinin və erkən nikahların fəsadları barədə maarifləndirmə işləri aparılır, nümunəvi ailələrin evlilik yubileyləri qeyd olunur, uzunömürlü ailələrin nümayəndələri ilə görüşlər təşkil edilir, mütəmadi olaraq müxtəlif tədbirlər həyata keçirilir. Ailə cəmiyyətimizin təməlidir. Güclü ailə dəyərləri üzərində qurulan cəmiyyət daha sağlam, daha möhkəm və daha uğurlu olur.

Bu gün burada keçirilən intellektual yarış yalnız bilik yarışı deyil, eyni zamanda ailə üzvləri arasında qarşılıqlı etimadı, birgə qərarvermə bacarığını və komanda ruhunu möhkəmləndirən gözəl bir platformadır.

İnanırıq ki, bugünkü yarış iştirakçı ailələr üçün həm maraqlı, həm də yaddaqalan olacaq, sağlam rəqabət mühiti yaradacaq, ailələrimiz arasında birlik, həmrəylik və qarşılıqlı dəstək ruhunu daha da gücləndirəcək.

Komitə sədri iştirakçıların hər birinə uğurlar arzulayaraq tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkür edib.

Daha sonra çıxış edən "Regional İnkişaf" İctimai Birliyinin əməkdaşı Fuad Adıgözəlov qeyd edib ki, təşkilat ailələrin inkişafı və sosial rifahının yüksəldilməsi istiqamətində müxtəlif layihələr həyata keçirir və bu sahədə komitə ilə səmərəli əməkdaşlıq edir. "Çempion ailələr" layihəsi də bu əməkdaşlığın uğurlu nümunələrindən biridir.

Bildirilib ki, layihə çərçivəsində Bakı, Şirvan və Yevlax şəhərləri ilə yanaşı, Qusar, Samux, Gədəbəy, Yardımlı, Beyləqan və Zəngilan rayonlarında yarışlar uğurla təşkil olunub. Fuad Adıgözəlov Naxçıvanda keçirilən yekun yarışın hər bir iştirakçı üçün unudulmaz olacağına inandığını bildirərək bütün ailələrə uğurlar arzulayıb.

Yarışda muxtar respublikanın rayonlarından seçilmiş 10 fəal ailə iştirak edib. İştirakçı ailələr müxtəlif mövzular üzrə təqdim olunan sualları cavablandıraraq bilik və bacarıqlarını nümayiş etdiriblər.

Yarışın nəticələrinə əsasən I yerə Şərur rayonundan olan Əlizadələr ailəsi, II yerə Naxçıvan şəhərindən olan Quliyevlər ailəsi, III yerə isə Babək rayonundan olan Rüstəmovlar ailəsi layiq görülüb.

Sonda qalib ailələrə və digər iştirakçılara diplom, sertifikat və hədiyyələr təqdim edilib.

# Sədərək – Vətən sevgisinin canlı abidəsi
# Ulu Öndərin ilk səfər ünvanı






Sədərək Azərbaycan üçün, sadəcə, bir yaşayış məntəqəsi və ya sərhəd nöqtəsi deyil. O, xalqımızın ən ağır sınaqlar qarşısında göstərdiyi qəhrəmanlığın, dözümlülüyün və Vətən sevgisinin canlı abidəsidir. 1990-cı ilin isti yayında Naxçıvanı düşmən mühasirəsi və aclıq qorxusu bürüdüyü bir vaxtda Ulu Öndər Heydər Əliyevin bu torpağa gəlməsi xalqının ən çətin anında yanında durmaq istəyinin parlaq ifadəsi oldu. Sədərək kəndində o illərdə qəhrəmanlıq dastanı yazıldı, şəhidlər verildi, amma bir qarış torpaq düşmənə təslim edilmədi. Ulu Öndərin bu torpağa olan xüsusi qayğısı və dəstəyi ilə Sədərək həm müdafiə olundu, həm də sonrakı illərdə dirçəldildi. Bu gün Sədərəyə baxanda həm keçmişin qan yaddaşı, həm də gələcəyə uzanan ümid işığı görünür.

Bu, Azərbaycanın qanla sulanmış, cəsarətlə yoğrulmuş, amma heç vaxt əyilməyən qürurunun, mərdliyinin və müqavimətinin əbədi simvoludur. Yanvarın 19-da atəş səsləri ilə səfərbər olan sədərəklilər ilk şəhidləri verdi. Naxçıvanın hər tərəfindən – Şərurdan, Ordubaddan, Culfadan, Nehrəmdən könüllü dəstələr axışır, sinələrini düşmənə sipər edirdi. Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişindən 5 gün sonra, iyulun 28-də Sədərəyə səfəri təsadüfi deyildi. 1990-1993-cü illərdə Sədərək 14 dəfə güclü hücuma məruz qaldı, 300-ə yaxın top mərmisi atıldı, 500-ə yaxın ev, məktəb və sosial obyekt dağıdıldı. Lakin qəhrəman naxçıvanlılar torpaqlarını bir övlad kimi qucaqlayaraq bir an belə tərk etmədilər... Belə bir vaxtda bütün naxçıvanlıların ümidi gəlişi ilə ömrümüzün hər gününə Günəş kimi həm aydınlıq, həm də hərarət gətirən xalqının mərd, vətənsevər oğlu dahi rəhbər Heydər Əliyev idi. Dahi rəhbərin yurduna qayıdışından, igid oğulların qəhrəmanlığından qorxuya düşən düşmən yavaş-yavaş öz qınına çəkilməyə başladı.

Ulu Öndər Heydər Əliyevin onu canı qədər sevən, ona özü kimi inanan insanların qarşısında, ***“Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam. Azərbaycan dövlətinin müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır”***, – deməsi onlarda qələbə, inam əzmini gücləndirdi. Sədərək döyüşlərində bütün Naxçıvan diyarının qeyrətli, igid oğulları mərdliklə vuruşdular və qalib gəldilər.

Dahi liderin Sədərəyə sevgisi çox dərin idi. Hələ 1970-ci illərdə Azərbaycanın rəhbəri olarkən onun şəxsi təşəbbüsü ilə burada 71 ailəlik indiki müasir Heydərabad qəsəbəsi salınmışdı. Məqsəd erməni iddialarına qarşı simvolik cavab vermək, Azərbaycanın burada öz torpağına sahib çıxdığını, inkişaf etdiyini göstərmək idi. Lakin 90-cı illərin əvvəllərində həmin qəsəbə düşmən güllələri altında xarabaya çevrilmişdi. Ulu Öndər bu mənzərəni görəndə dərin kədər hissi keçirmişdi. 29 avqust 1990-cı ildə Sədərək rayon statusu aldı, müdafiəsi gücləndirildi. 1992-ci ilin mayında düşmən yenidən amansız hücuma keçdi. Əjdəkan, Beşbarmaq, Ucubiz və Mil istiqamətlərindən zərbələr endirildi. 38 şəhid verildi, Mildə 17 şəhidin cəsədi günlərlə götürülə bilmədi. Ulu Öndər bütün gücü ilə müdafiəni təşkil etdi, Türkiyəyə müraciət etdi, yaralıları Ərzuruma göndərdi, beynəlxalq ictimaiyyəti hərəkətə gətirdi. Sədərək müqavimət göstərdi. Bu dirəniş Azərbaycan tarixində ilk böyük mənəvi qələbələrdən biri oldu. Sədərəklilər təkcə özləri üçün yox, bütün Naxçıvan, bütün Azərbaycan üçün vuruşurdular.

2002-ci ildə Sədərəyə səfər edən Ulu Öndər keçmişi xatırlayarkən səsi titrəyirdi: ***“Mən 1990-cı ildə Naxçıvana gələndə yaşayış məntəqələrindən ilk gedişim Sədərək rayonuna oldu... Nə üçün Sədərəyə? Çünki bu bizim həm ucqar yaşayış məntəqəmizdir, həm də ki, insanlar burada ermənilərin hücumundan çox əziyyət çəkmişdilər”.*** O dağılmış evlərin yerində dirçələn qəsəbəni görəndə sevinirdi. Bu onun Sədərəyə növbəti qayğısı idi. Bu gün Sədərəyə baxanda qəlb dolur, gözlər yaşarır. Heydərabad qəsəbəsi abadlaşıb, torpaqlar məhsul verir, uşaqların gülüşü ətrafa yayılır. Bunların arxasında isə o qanlı gecələr, şəhidlərin əziz xatirəsi və Ulu Öndərin qayğısı dayanır. O qayğı ki hər bir azərbaycanlını bu torpaq uğrunda can qoymağa səsləyir.

Sədərək Ulu Öndərin xeyir-duası ilə əbədiləşmiş qəhrəmanlıq dastanıdır. Bu gün rayon mərkəzi Heydərabad qəsəbəsi özünəməxsus gözəlliyi ilə düşmənə gözdağı, bizə isə qürur yaşadır. O, adına layiq məğrurluqla dayanıb düşmənin qarşısında. Heydərabadda yaşayan hər kəs sanki səngərdə bir əsgər kimi həyat sürür. Bəli, onların hər biri əsgərdir: səngərdə – öz evində Vətəni qoruyan müsəlləh əsgər. Necə ki belə qəlbi dağlardan da böyük insanlarımız var, bu Vətən daim var, qürur yerimizə çevrilən yurd yerlərimizin gələcəyi daha da firavan və işıqlı olacaq.

**✍ Rafiq TƏHMƏZ**



# Dövlət Proqramı Naxçıvanda quşçuluq təsərrüfatlarının inkişafına yeni təkan verəcək

***Prezident İlham Əliyevin bu il mayın 25-də imzaladığı Sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" quşçuluq sektorunun inkişafı ilə bağlı mühüm hədəflər müəyyənləşdirib. Sənəddə müasir quşçuluq damlarının tikintisi və mövcud təsərrüfatların modernləşdirilməsi, müasir kəsimxanaların yaradılması, torpaq təyinatı ilə bağlı mövcud çətinliklərin aradan qaldırılması, damazlıq işinin təşviqi, eləcə də quşçuluq müəssisələrinin elektrik və qaz şəbəkələrinə qoşulma xərclərinin subsidiyalaşdırılması nəzərdə tutulur. Bu tədbirlər hesabına 2030-cu ilədək quş əti istehsalının, təxminən, 30 faiz artırılması və ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsi hədəflənir.***

Dövlət Proqramında müəyyənləşdirilən tədbirlər quşçuluq sahəsinin müasir əsaslarla inkişafına, istehsalın səmərəliliyinin artırılmasına və ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə xidmət edir. Son illər Naxçıvan Muxtar Respublikasında da dövlət dəstəyi, müasir istehsal üsullarının tətbiqi və sahibkarlığın təşviqi nəticəsində quşçuluq təsərrüfatlarının inkişafında müsbət dinamika müşahidə olunur. Dövlət Proqramının icrası muxtar respublikada yeni təsərrüfatların yaradılmasına, mövcud müəssisələrin modernləşdirilməsinə, istehsal həcmlərinin artırılmasına və əhalinin keyfiyyətli quşçuluq məhsulları ilə təminatının daha da yaxşılaşdırılmasına əlavə imkanlar yaradacaq.

Culfa Regional Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşı




Nihad Kərimli "Şərq qapısı"na müsahibəsində bildirib ki, Dövlət Proqramı aqrar sektorun müasir çağırışlara uyğun inkişafını, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsini və istehsalın artırılmasını əsas prioritetlər kimi müəyyən edir. Onun sözlərinə görə, bu məqsədlərə nail olunmasında quşçuluq sahəsinin inkişafı xüsusi əhəmiyyət daşıyır.

Nihad Kərimli qeyd edib ki, müasir texnologiyaların tətbiqi, yem bazasının möhkəmləndirilməsi və sahəyə investisiyaların cəlb edilməsi quşçuluq təsərrüfatlarının səmərəliliyini artıracaq. Bununla yanaşı, fermerlər sanitar-gigiyena qaydalarına ciddi əməl etməli, baytarlıq-profilaktik tədbirləri vaxtında həyata keçirməli, keyfiyyətli yem və təmiz sudan istifadə etməlidirlər. Bu amillər məhsuldarlığın yüksəldilməsinə, xəstəliklərin qarşısının alınmasına və təhlükəsiz quşçuluq məhsullarının istehsalına birbaşa təsir göstərir.

O bildirib ki, son illər dövlət dəstəyi, güzəştli kreditlər və fermerlərin zəhməti nəticəsində quşçuluq təsərrüfatları davamlı inkişaf edir. Həyata keçirilən tədbirlər ölkənin ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə və əhalinin keyfiyyətli quşçuluq məhsulları ilə təminatına mühüm töhfə verəcək.

Culfa rayonunun Gülüstan




kənd sakini Bəhruz İsmayılov 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən ayrılmış 40 min manat güzəştli kredit hesabına ailə təsərrüfatı yaradıb. Həmin



vaxtdan etibarən təsərrüfatını ardıcıl şəkildə inkişaf etdirən fermer hazırda hinduşqa və toyuq yetişdirilməsi ilə məşğuldur.

Fermerin sözlərinə görə, hazırda təsərrüfatda 1000-dən artıq hinduşqa cücəsi olmaqla, ümumilikdə, 2-3 min müxtəlif növ cücə saxlanılır. Bundan başqa, burada 500-ə yaxın yumurtlayan toyuq bəslənilir. Əsas məqsəd təsərrüfatı daha da genişləndirmək və bazara daha çox keyfiyyətli məhsul çıxarmaqdır. Altı hektar ərazini əhatə edən təsərrüfatda quşların saxlanılması üçün müasir damlar, köməkçi tikililər və geniş otlaq sahələri yaradılıb.

Təbii otlaq sahələri quşların sağlam böyüməsinə, təbii şəraitdə bəslənməsinə və yüksək keyfiyyətli məhsul əldə olunmasına əlverişli şərait yaradır.

Muxtar respublikada nümunəvi ailə təsərrüfatçılarından biri kimi tanınan Bəhruz İsmayılov göstərdiyi səmərəli fəaliyyətə görə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. O bildirir ki, bu uğurun əsasında atasının, qardaşının və digər ailə üzvlərinin dəstəyi, eləcə də uzun illərin zəhməti dayanır. Ailə üzvlərinin birgə əməyi sayəsində təsərrüfat ildən-ilə genişlənir, istehsal həcmi və gəlirlər artır.

Fermer qeyd edir ki, təsərrüfatda quşların sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir. Cücələr birhəftəlik olduqda burun damcısı vasitəsilə vaksinasiya edilir, bir aylığında çiçək, iki aylığında isə taun xəstəliyinə qarşı peyvənd olunur. Baytarlıq-profilaktik tədbirlərin hamısı müəyyən edilmiş qrafik əsasında vaxtında həyata keçirilir. Təsərrüfatda yetişdirilən məhsullar Naxçıvan



Muxtar Respublikasında təşkil olunan kənd təsərrüfatı yarmarkalarında, eləcə də birbaşa təsərrüfatda satışa çıxarılır. Bəhruz İsmayılov gələcəkdə istehsal gücünü daha da artırmağı və təsərrüfatını genişləndirməyi əsas hədəflərindən biri kimi qiymətləndirir.

Gülüstan kəndində fəaliyyət göstərən bu təsərrüfatın timsalında, demək olar ki, son illər dövlət dəstəyi, sahibkarların təşəbbüskarlığı və müasir texnologiyaların tətbiqi Naxçıvanda quşçuluq sahəsinin inkişafına mühüm təkan verib. Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" isə bu istiqamətdə həyata keçirilən tədbirlərin daha da genişlənməsinə yeni imkanlar açır. Dövlət Proqramında nəzərdə tutulan müasir quşçuluq komplekslərinin yaradılması, damazlıq işinin təkmilləşdirilməsi, istehsal və emal infrastrukturunun inkişafı, eləcə də fermerlərə göstərilən dövlət dəstəyi sahənin rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Bununla yanaşı, bu tədbirlər ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, yerli istehsalın artırılmasına və keyfiyyətli quşçuluq məhsullarına tələbatın daha dolğun ödənilməsinə töhfə verəcək. Dövlət Proqramının icrası nəticəsində Naxçıvanda quşçuluq təsərrüfatlarının istehsal gücünün artacağı, yeni təsərrüfatların formalaşacağı, məşğulluq imkanlarının genişlənəcəyi və əhalinin təhlükəsiz, keyfiyyətli quşçuluq məhsulları ilə təminatının daha da yaxşılaşacağı gözlənilir.

**✍ Nail ƏSGƏROV**



## Muxtar respublikanın ixracı 14,4 faiz artıb




2026-cı ilin yanvar-iyun aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 70,5 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 22,5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, xarici ticarət dövriyyəsinin 6,7 milyon ABŞ dolları ixracın, 63,8 milyon ABŞ dolları isə idxalın payına düşüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ixrac 14,4 faiz, idxal isə 23,4 faiz artıb.

İxrac olunan məhsullar sırasında tütün məmulatları, vafli və vafli məmulatları, sement, elektrik enerjisi, alçıpan, mineral sular, travertin, aromatlaşdırılmış içkilər, şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları, buğda kəpəyi, soğan, şokolad və tərkibində kakao olan ərzaq məhsulları, məsaməli beton, çay və salfet yer alıb.

Həmin məhsullar Gürcüstan, Qırğızıstan, Yəmən, İran, Türkiyə, İsrail, Suriya, İraq, Rusiya, Amerika Birləşmiş Ştatları, Qazaxıstan və Ukraynaya ixrac olunub.

## Naxçıvanda dövlət dəstəyi və özəl investisiyalar hesabına 141 layihə başa çatdırılıb




2026-cı ilin yanvar-iyun ayları ərzində Naxçıvan Muxtar Respublikasında yeni istehsal və xidmət sahələrinin yaradılması, eləcə də mövcud layihələrin genişləndirilməsi istiqamətində 141 layihə icra olunub.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, bu layihələrdən 30-u yeni yaradılma, 111-i isə mövcud layihələrin genişləndirilməsi üzrə həyata keçirilib. Eyni zamanda 36-sı yaradılma və 52-si genişləndirmə olmaqla, ümumilikdə, 88 layihənin icrası davam etdirilib.

Layihələrin maliyyələşdirilməsi dövlət dəstəyi və özəl investisiyalar hesabına təmin edilib. İcra olunmuş 141 layihədən 122-si Naxçıvan Muxtar Respublikasının Sahibkarlığın İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilib.

# Naxçıvana hər səfərim mənim üçün yeni bir kəşfdir

## Siyasi analitik və beynəlxalq məsələlər üzrə ekspert Piter M. Teys ilə müsahibə

**IV Şuşa Qlobal Media Forumunda iştirak etmək üçün Azərbaycana gələn amerikalı siyasi analitik və beynəlxalq məsələlər üzrə ekspert Piter M. Teys forumdan sonra Naxçıvana da səfər edib. Artıq üçüncü dəfədir, muxtar respublikada olan qonaq “Şərq qapısı” qəzetinə müsahibəsində Naxçıvanda müşahidə etdiyi dəyişikliklərdən, Zəngəzur dəhlizinin perspektivlərindən və bölgənin turizm imkanlarından danışıb.**

**Azərbaycanın son illərdə müxtəlif sahələrdə qazandığı uğurlar və beynəlxalq nüfuzunun artması ölkəmizin dostları tərəfindən də maraq və rəğbətlə izlənilir. İyulun 13-də keçirilən IV Şuşa Qlobal Media Forumu da bu baxımdan mühüm platforma oldu. Dünyanın 53 ölkəsindən 160-a yaxın media nümayəndəsini və eksperti bir araya gətirən forum iştirakçılara Azərbaycanı daha yaxından tanımaq imkanı yaratdı.**

**Forumun fəal iştirakçılarından biri, artıq 20 ilə yaxındır ki, Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyaya çatdıran amerikalı siyasi analitik və beynəlxalq məsələlər üzrə ekspert Piter M. Teys forumdan sonra Naxçıvana gələrək buradakı dostları ilə görüşdü. Fürsətdən istifadə edib onunla “Şərq qapısı” qəzetinin redaksiyasında həmsöhbət olduq.**




***– Cənab Teys, sizi yenidən Naxçıvanda görməyə şadıq. Budəfəki səfəriniz sizin üçün nə ilə yadda qaldı?***

– Təşəkkür edirəm. Naxçıvanda özümü evimdəki kimi rahat hiss edirəm. Bura təmiz və sakit şəhərdir, insanları isə çox mehriban və qonaqpərvərdir. Ən əsası isə burada mənim dəyərli dostlarım var.

Bu, Naxçıvana üçüncü səfərimdir. İlk dəfə 2014-cü ildə burada olmuşam. Həmin vaxtdan bəri şəhərdə ciddi dəyişikliklər baş verib, abadlıq işləri genişlənib, yaşıllıqlar artıb. Son səfərimdən səkkiz il keçməsinə baxmayaraq, buradakı dostlarımla əlaqələrim heç vaxt kəsilməyib. Onların vasitəsilə Naxçıvanın inkişafını daim izləyib, bu qədim diyar haqqında məlumat almış, birgə məqalələr dərc etdirmişik. Prezident cənab İlham Əliyevin Naxçıvanın inkişafına göstərdiyi diqqəti də hər zaman maraqla izləmişəm.

Naxçıvan, hər şeydən əvvəl, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin doğma yurdudur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bura həm də sovet imperiyasına qarşı milli azadlıq mübarizəsinin başlandığı məkandır. İlk ziyarət etdiyim ünvanlardan biri Heydər Əliyev Muzeyi oldu. Muzeydə nümayiş etdirilən sənədlər və eksponatlar bu tarixi mərhələni daha yaxından öyrənməyə imkan verir.

Mənim üçün böyük qürur mənbəyidir ki, Cənubi Qafqazda sabitliyin və etibarlı əməkdaşlığın mühüm dayaqlarından biri olan Azərbaycanı yaxından tanıyır və gördüklərimi ABŞ-də yaşayan geniş oxucu auditoriyası ilə bölüşə bilirəm. Azərbaycanın üzləşdiyi ədalətsizliklərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyət göstərməkdən məmnunluq duyuram. Eyni zamanda Naxçıvanda qazandığım dostlarla, onların elm, təhsil, media və turizm sahələrində əldə etdikləri uğurlarla fəxr edirəm.

Artıq üç gündür ki, Naxçıvandayam. Bu müddətdə apardığım müşahidələr və əldə etdiyim məlumatlar göstərir ki, muxtar respublika yeni inkişaf və inteqrasiya mərhələsinə qədəm qoyub. Uzun illər blokada şəraitində yaşayan Naxçıvan bu gün yeni imkanlar qazanır. İnanıram ki, Zəngəzur dəhlizinin açılması və yeni idarəetmə mexanizmlərinin fəaliyyəti muxtar respublikanın Azərbaycanın digər bölgələri ilə inteqrasiyasını daha da gücləndirəcək.

*Hesab edirəm ki, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə, region və beynəlxalq ticarət üçün yeni imkanlar açacaq. Bu marşrut nəqliyyat əlaqələrini genişləndirəcək, yükdaşımaları sürətləndirəcək, iqtisadi əməkdaşlığı gücləndirəcək və regionda uzunmüddətli sülhün möhkəmlənməsinə töhfə verəcək.*

*Naxçıvan isə bu prosesdən ən çox fayda əldə edəcək bölgələrdən biri olacaq. Muxtar respublika geostrateji mövqeyinə görə mühüm nəqliyyat və logistika mərkəzinə çevrilə, investorlar üçün daha cəlbedici ola bilər. Bununla yanaşı, turist axınının artacağını, xidmət sektorunun genişlənəcəyini və regionun sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanacağını düşünürəm.*

Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan olunması da Naxçıvanda müasir şəhərsalma yanaşmalarının tətbiqinə və yeni yaşayış məhəllələrinin salınmasına əlavə təkan verir.

Bundan başqa, Naxçıvanda fəaliyyət göstərən sahibkarlar üçün tətbiq olunan vergi güzəştləri, bölgənin “yaşıl enerji zonası” kimi inkişaf etdirilməsi, qeyri-neft məhsullarının ixracına verilən dəstək, eləcə də Naxçıvan şəhərində ictimai nəqliyyatın ekoloji cəhətdən təmiz avtobuslarla yenilənməsi dövlətin bölgənin inkişafına göstərdiyi diqqətin bariz nümunələridir.

Qeyd etdiyim bütün bu dəyişikliklər üç ölkə ilə həmsərhəd olan Naxçıvanın strateji mövqeyini daha da gücləndirir və onun qarşıdakı illərdə regional əməkdaşlıq baxımından əhəmiyyətini artırır.

***– Zəngəzur dəhlizini qeyd etdiniz. Sizcə, bu dəhliz həm Azərbaycana, həm də dünyaya nə qazandıracaq?***

– Zəngəzur dəhlizi Azərbaycanın Vətən müharibəsində qazandığı qələbədən sonra Prezident cənab İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərdən biridir. Qısa müddətdə beynəlxalq siyasi gündəliyin mühüm mövzularından birinə çevrilən bu layihənin reallaşması istiqamətində ciddi addımlar atılır. Bu prosesin ABŞ Prezidenti Donald Tramp tərəfindən dəstəklənməsi də layihənin beynəlxalq əhəmiyyətini göstərir.

Hesab edirəm ki, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə, region və beynəlxalq ticarət üçün yeni imkanlar açacaq. Bu marşrut nəqliyyat əlaqələrini genişləndirəcək, yükdaşımaları sürətləndirəcək, iqtisadi əməkdaşlığı gücləndirəcək və regionda uzunmüddətli sülhün möhkəmlənməsinə töhfə verəcək.

Naxçıvan isə bu prosesdən ən çox fayda əldə edəcək bölgələrdən biri olacaq. Muxtar respublika geostrateji mövqeyinə görə mühüm nəqliyyat və logistika mərkəzinə çevrilə, investorlar üçün daha cəlbedici ola bilər. Bununla yanaşı, turist axınının artacağını, xidmət sektorunun genişlənəcəyini və regionun sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanacağını düşünürəm.

***– Turizmdən bəhs etdiniz. Naxçıvanın turizm potensialını necə qiymətləndirirsiniz?***

– Naxçıvan turizm baxımından olduqca zəngin və cəlbedici diyardır. Burada Ağrı dağı mənzərəsindən Ordubadın Zəngəzur silsiləsinə, Arazboyu ərazilərdən Şahbuzun Batabat yaylağına qədər müxtəlif təbii və tarixi məkanlar mövcuddur. Əvvəlki səfərlərimdə bu yerlərin bir çoxunu görmək imkanım olub. Görmədiyim məkanlar barədə isə sizdən və uzun illərdir, tanıdığım turizm bələdçisi dostum Natiq Paşayevdən məlumat almışam.




Bu səfərim zamanı Azərbaycan və Dünya Bələdçilər Federasiyaları Assosiasiyasının həqiqi üzvü Natiq Paşayevlə birlikdə Kiçik Qafqazın 3050 metr yüksəklikdə yerləşən Göygölünə səyahət etdik. Naxcivantravel şirkətinin təşkil etdiyi bu səfər mənim üçün unudulmaz təcrübə oldu. Mənə dedilər ki, Göygölü ziyarət edən ilk amerikalı ekspert olmuşam. Bu mənim üçün xoş xatirədir.

Bu gün isə Şərur rayonunun Şahbulaq kəndi istiqamətində yerləşən möhtəşəm kanyonu görməyi planlaşdırırıq. Deyilənə görə, həmin ərazidə Mars səthini xatırladan unikal landşaft mövcuddur.

Ümumilikdə, hesab edirəm ki, xüsusilə Ordubad və Şahbuz rayonlarının turizm potensialı çox böyükdür. Ordubadın zəngin tarixi, Göygöl, Gəmiqaya kimi dünya əhəmiyyətli irsi və Şahbuzun təbii ekoturizm imkanları bölgəyə xüsusi üstünlük qazandırır. Bu ərazilərdə həm kütləvi, həm də dayanıqlı turizmin inkişafı üçün kifayət qədər resurs və formalaşmış infrastruktur mövcuddur.

Gələcək perspektiv baxımından Şahbuz və Ordubaddan keçən tranzit yolların əhəmiyyətini də xüsusi qeyd etmək istərdim. Bu marşrutlar Naxçıvanı Şərqi Zəngəzur və Qarabağla birləşdirəcək mühüm nəqliyyat əlaqələrindən birinə çevrilə bilər.

Naxçıvana gələn turistlər Duzdağ Müalicə Mərkəzinin, zəngin mineral su ehtiyatlarının və dağ təbiətinin üstünlüklərindən faydalanırlar. Bundan əlavə, yüksək dağlıq ərazilərdə istehsal olunan bal, meyvə, tərəvəz və heyvandarlıq məhsullarının daha geniş tanıdılması və brendləşdirilməsi də region iqtisadiyyatına mühüm töhfə verə bilər.

Yadımdadır, əvvəlki səfərimdə Kükü almasının dadı məndə xoş təəssürat yaratmışdı. Bu dəfə isə iyul mövsümünün gilası və göycəsi həmin məhsulların yüksək keyfiyyətini bir daha göstərdi.

***– Yenidən Zəngəzur dəhlizi mövzusuna qayıdaq. Bir siyasi ekspert kimi bu yolun Naxçıvan üçün perspektiv faydalarını necə qiymətləndirirsiniz?***

– Məncə, Zəngəzur dəhlizi təkcə nəqliyyat və logistika layihəsi deyil. Bu, bütövlükdə, region üçün yeni investisiya, ticarət və məşğulluq imkanları deməkdir. Bu prosesin mərkəzində isə, şübhəsiz, Naxçıvan dayanacaq.

Naxçıvan əlverişli coğrafi mövqeyi, geostrateji əhəmiyyəti və intellektual insan kapitalı ilə yaranacaq yeni imkanlardan səmərəli istifadə etmək potensialına malikdir. Sizinlə söhbətlərimiz zamanı öyrəndim ki, Naxçıvan Dövlət Universitetində ingilis dilində tədris olunan ixtisasların sayı artır və bu proqramlara maraq kifayət qədər yüksəkdir. Qloballaşan dünyada bu, çox vacib amildir. İnanıram ki, həm universitet, həm də region yaxın gələcəkdə bunun müsbət nəticələrini görəcək.

Səmimi desəm, imkan yaranarsa, gələcəkdə Naxçıvan Dövlət Universitetinin tələbələri ilə auditoriyada görüşmək və onlarla fikir mübadiləsi aparmaq mənim üçün böyük məmnunluq olardı.

Hesab edirəm ki, Zəngəzur dəhlizinin reallaşması ilə formalaşacaq yeni reallıq Naxçıvanın iqtisadi və sosial inkişafına mühüm töhfə verəcək, onun beynəlxalq əlaqələrini daha da genişləndirəcək.

Sonda qonaqpərvər Naxçıvan sakinlərinə firavanlıq və uğurlar arzulayıram. Uzun illərdir, məqalələrimin dərc olunduğu “Şərq qapısı” qəzetinin kollektivinə də gələcək fəaliyyətlərində yeni nailiyyətlər diləyirəm.

*– Müsahibə üçün sağ olun!*

**Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

# Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası: otuz ilə yaxın yaradıcılıq salnaməsi

Teatr bəşəriyyətin mənəvi, mədəni inkişaf tarixində insanın daxili aləmini, ictimai münasibətləri və milli-mədəni dəyərləri əks etdirən ən təsirli sənət növlərindən biridir. O, bədii-estetik zövqü formalaşdıran, milli kimliyi qoruyan, vətəndaşlıq mövqeyini möhkəmləndirən və gənc nəslin hərtərəfli inkişafına xidmət edən mühüm ictimai-mədəni təsisatdır. Bu baxımdan, teatrın inkişafı təhsil sistemi və gənc istedadların yetişdirilməsi ilə sıx bağlıdır.

Azərbaycan teatr tarixinin inkişaf mərhələlərinə nəzər saldıqda aydın görünür ki, peşəkar teatr sənətinin formalaşması məktəb teatrı ənənələrinin yaranması ilə bağlı olmuşdur. XIX əsrin ikinci yarısında Azərbaycanda maarifçilik ideyalarının geniş yayılması, yenitipli məktəblərin təşkili və milli ziyalı nəslinin formalaşması teatr sənətinin inkişafı üçün əlverişli zəmin yaratmışdır. Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov və Əsgər ağa Adıgözəlov Gorani kimi maarifçi ziyalıların təşəbbüsü ilə Bakı Realnı Gimnaziyasında hazırlanan tamaşalar milli peşəkar teatrın əsasını qoymuşdur. Bu isə Azərbaycan teatr təhsilinin ilkin inkişaf mərhələsinin başlanğıcı olmuşdur. İlk tamaşalarda iştirak edən gimnaziya şagirdləri sonralar milli dramaturgiyanın, aktyorluq məktəbinin və teatr rejissorluğunun inkişafında mühüm xidmətlər göstərmiş, beləliklə, məktəb teatrı peşəkar sənətin ilk yaradıcılıq laboratoriyasına çevrilmişdir.



Məktəb teatrı yalnız səhnə fəaliyyətinin təşkili ilə kifayətlənməmiş, maarifçilik hərəkatının əsas istiqamətlərindən biri kimi gənclərin estetik zövqünün formalaşmasına, milli özünüdərk hissinin gücləndirilməsinə, ana dilinin və milli dramaturgiyanın təbliğinə xidmət etmişdir. Bu prosesdə teatr, məktəb və mətbuat bir-birini tamamlayan mühüm maarifçilik institutları kimi çıxış edərək cəmiyyətin mədəni inkişafına əhəmiyyətli təsir göstərmişdir. Sonrakı dövrlərdə teatr dərnəklərinin, studiyaların, xalq teatrlarının və ali təhsil müəssisələrində fəaliyyət göstərən teatr kollektivlərinin yaranması milli teatr məktəbinin sistemli inkişafını təmin etmişdir. Azərbaycan teatr təhsili ustad-şagird ənənəsindən başlayaraq müasir ali təhsil sisteminədək uzanan, nəzəri hazırlıqla praktik səhnə təcrübəsinin vəhdətinə əsaslanan milli inkişaf modeli formalaşdırmışdır.

Bu zəngin tarixi ənənələrin müasir dövrdə uğurlu davamçılarından biri də Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasıdır. 1998-ci ildə fəaliyyətə başlayan studiya artıq otuz ilə yaxındır ki, universitetin elm, təhsil və mədəni həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Onun yaradılması təsadüfi olmayıb, XIX əsrdə əsası qoyulan maarifçi teatr hərəkatının ali təhsil mühitində təbii davamı kimi formalaşmışdır. Yarandığı gündən etibarən studiyanın fəaliyyət konsepsiyası yalnız tamaşa hazırlamaqla məhdudlaşmamışdır. Əsas məqsəd gənclərin yaradıcılıq qabiliyyətinin və bədii-estetik zövqünün inkişaf etdirilməsi, səhnə mədəniyyətinin, nitq və davranış bacarıqlarının formalaşdırılması, milli-mənəvi dəyərlərə bağlılığın möhkəmləndirilməsi və gələcək teatr mütəxəssislərinin peşə hazırlığının təmin edilməsi olmuşdur. Məşqlər zamanı aktyor sənətinin əsas komponentləri – səhnə danışığı, obrazın psixoloji təhlili, səhnə hərəkəti, improvizasiya, tərəf-müqabili ilə ünsiyyət, kollektiv məsuliyyət və tamaşa intizamı ardıcıl şəkildə mənimsədilmişdir. Bu baxımdan, studiya universitet auditoriyasında əldə edilən nəzəri biliklərin səhnədə praktik tətbiq olunduğu yaradıcılıq laboratoriyası funksiyasını yerinə yetirmişdir.

Studiyanın repertuar siyasəti onun yaradıcılıq konsepsiyasını müəyyənləşdirən əsas istiqamətlərdən biridir. Repertuarda Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Kamal Abdulla, Nəbi Xəzri, Adil Babayev kimi dramaturgiyamızın görkəmli nümayəndələrinin əsərləri ilə yanaşı, dünya dramaturgiyasının seçilmiş nümunələri də mühüm yer tutmuşdur. Bu yanaşma tələbələrə müxtəlif aktyorluq məktəbləri və estetik üslublarla tanış olmaq, fərqli ifa texnikalarını mənimsəmək imkanı yaratmışdır.



Studiyanın fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindən biri universitetdə fəaliyyət göstərən müxtəlif yaradıcılıq istiqamətləri və incəsənət sahələri arasında formalaşdırdığı qarşılıqlı əməkdaşlıq mühitidir. Teatr sənətinin musiqi, vokal, rəqs, instrumental ifa, folklor və digər səhnə sənətləri ilə üzvi şəkildə inteqrasiyası nəticəsində ərsəyə gətirilən teatrlaşdırılmış kompozisiyalar tamaşaların bədii-estetik dəyərini yüksəltmiş, onların emosional təsir gücünü və səhnə ifadə vasitələrinin rəngarəngliyini daha da zənginləşdirmişdir. Bu yaradıcılıq sintezi tələbələrin müxtəlif incəsənət sahələri üzrə əldə etdikləri bilik və bacarıqların vahid səhnə məkanında tətbiqinə imkan yaratmış, kollektiv yaradıcılıq ənənələrinin möhkəmlənməsinə, ixtisaslararası inteqrasiyanın inkişafına və kompleks səhnə düşüncəsinin formalaşmasına mühüm zəmin yaratmışdır. Studiya təkcə teatr yaradıcılığı mərkəzi kimi deyil, həm də müxtəlif sənət istiqamətlərinin qarşılıqlı əlaqəsini təmin edən, yaradıcı əməkdaşlıq və peşəkar inkişaf mühitini formalaşdıran mühüm mədəni tədris platforması kimi özünü təsdiq etmişdir.

Hazırlanan səhnə əsərləri və teatrlaşdırılmış kompozisiyalar təkcə universitet daxilində deyil, Naxçıvan Muxtar Respublikasında keçirilən dövlət tədbirlərində, respublikanın müxtəlif bölgələrində, eləcə də beynəlxalq festival, forum, elmi-mədəni layihələr və incəsənət tədbirlərində uğurla nümayiş etdirilmişdir. Studiyanın fəaliyyəti müxtəlif səviyyəli təhsil müəssisələri ilə qurulan yaradıcı əməkdaşlıq çərçivəsində ardıcıl şəkildə inkişaf etdirilmişdir. Ümumi, peşə, orta ixtisas və ali təhsil müəssisələri ilə birgə həyata keçirilən mədəni-maarif layihələri teatr sənətinin gənc nəslə aşılanması, estetik zövqün formalaşdırılması baxımından xüsusi rol oynamışdır. Bu amil həm də bədii yaradıcılığın təşviqi və təhsil pillələri arasında mədəni inteqrasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Tələbə Teatr Studiyasının çoxşaxəli fəaliyyəti tələbələrin yalnız peşəkar səhnə və aktyorluq bacarıqlarının inkişafına deyil, həm də onların hərtərəfli şəxsiyyət kimi formalaşmasına xidmət etmişdir. Yaradıcılıq prosesində iştirak edən gənclərdə liderlik keyfiyyətləri, təşkilatçılıq bacarıqları, komanda şəraitində səmərəli fəaliyyət göstərmək vərdişləri, yaradıcı və tənqidi təfəkkür, kommunikasiya mədəniyyəti, təşəbbüskarlıq, məsuliyyət hissi və sosial fəallıq kimi müasir dövrün tələb etdiyi ümumi səriştələrin inkişafı təmin olunmuşdur.

Bu təcrübənin ən mühüm institusional nəticələrindən biri Naxçıvan Dövlət Universitetində Teatr və Mədəniyyətşünaslıq kafedrasının yaradılması olmuşdur. Studiyanın çoxillik fəaliyyəti teatr təhsilinin bədii özfəaliyyət müstəvisindən elmi-pedaqoji və akademik müstəviyə keçidini zəruri etmişdir. Hazırda kafedra ilə studiya qarşılıqlı şəkildə bir-birini tamamlayan funksiyaları həyata keçirir. Kafedra aktyor sənəti, rejissorluq, teatrşünaslıq və mədəniyyətşünaslıq üzrə tələbələrin nəzəri hazırlığını təmin edir, Tələbə Teatr Studiyası isə bu biliklərin praktik tətbiq olunduğu əsas yaradıcılıq bazası kimi fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının otuz ilə yaxın inkişaf yolu sübut edir ki, tələbə teatrları ali təhsil sistemində, sadəcə, asudə vaxtın təşkili vasitəsi deyil, həm də nəzəri biliklə praktik təcrübəni birləşdirən mühüm təlim və yaradıcılıq laboratoriyalarıdır. Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının qazandığı zəngin yaradıcılıq və pedaqoji təcrübə artıq təkcə universitet tarixinin deyil, bütövlükdə, Azərbaycan teatr təhsili tarixinin mühüm səhifələrindən biri kimi dəyərləndirilə bilər. Bu irsin elmi əsaslarla öyrənilməsi, sistemləşdirilməsi və gələcək nəsillərə çatdırılması isə milli teatr təhsilinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Gülxarə ƏHMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*



## "Ümid" sənədli televiziya filminin təqdimatı keçirilib

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə "Ümid" sənədli televiziya filminin təqdimat mərasimi keçirilib.

Naxçıvan Dövlət Milli Dram Teatrında baş tutan təqdimat mərasimi Vətən uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Bildirilib ki, film Vətən müharibəsində itkin düşərək şəhidlik zirvəsinə ucalan İbrahim Vəlizadənin həyat yolundan bəhs edir. Ekran əsərində onun Vətənə sədaqəti, keçdiyi şərəfli ömür yolu, ailəsinin yaşadığı ümid və gözlənti hissi, eləcə də qəhrəmanlığı sənədli faktlar və xatirələr əsasında tamaşaçılara təqdim olunub.

Film iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb və şəhidin əziz xatirəsinə ehtiramın ifadəsi kimi dəyərləndirilib.

Təqdimat mərasimində şəhid ailələri, qazilər, dövlət və ictimai qurumların nümayəndələri, Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti, "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-nin kollektivi və digər qonaqlar iştirak ediblər.

Sonda filmin müəllifi Məsumə Şirəliyeva, şəhid İbrahim Vəlizadənin valideynləri Səməd Vəliyev və Xurşud Vəliyeva, həmçinin "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mayis Gülməmmədov çıxış edərək filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərini bildiriblər. Çıxışlarda vurğulanıb ki, bu cür sənədli ekran əsərləri şəhidlərimizin əziz xatirəsinin yaşadılması, onların qəhrəmanlıq salnaməsinin gələcək nəsillərə çatdırılması və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

## Hüseyn Cavidin ev-muzeyinin yaradılmasının 45 illiyi qeyd olunub



Görkəmli şair və dramaturq Hüseyn Cavidin Naxçıvan şəhərində yerləşən ev-muzeyinin yaradılmasının 45 illiyi münasibətilə tədbir keçirilib, filosof şairin xatirəsi anılıb. Tədbir iştirakçıları əvvəlcə Cavidlər ailəsinin üzvlərinin uyuduğu məqbərəni ziyarət edib və gül dəstələri qoyublar.



Tədbiri giriş sözü ilə açan Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksinin direktoru Tünzalə Dilanova muzeyin yaranma tarixi haqqında ətraflı məlumat verib. Bildirib ki, ev-muzeyi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan şəhərində, qədim Əlixan məhəlləsində yaradılıb. Muzey Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 21 iyul 1981-ci il tarixdə qəbul etdiyi "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" Qərara əsasən şairin 1919-cu ilədək yaşadığı evdə yaradılıb. Muzeyin rəsmi açılışı isə 1984-cü il 9 iyun tarixdə olub. Muzey uzun müddət "Hüseyn Cavidin ev-muzeyi" adı altında fəaliyyət göstərib, 2015-ci ildən etibarən isə dahi şairin məzarüstü abidəsi olan məqbərə də muzeyin nəzarətinə verilərək muzeyin adı "Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksi" adlandırılıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Musiqi və teatr şöbəsinin aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov "Cavidləri tanıdan məbədgah", Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksinin kiçik elmi işçisi İlknur Abbasova isə "Cavid irsinə ehtiram" mövzularında çıxış ediblər. Daha sonra muzeyin təəssürat kitabında görkəmli şəxsiyyətlərin muzey haqqında yazdığı fikirləri səsləndirilib.

Tədbirin davamında C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının aktyorları Anar Eyvazov və Şölə Alışovanın ifasında Hüseyn Cavidin "İblis" əsərindən "İblisin monoloqu", eləcə də "Çobanın nəğməsi", "Qadın" və "Mənim tanrım" şeirləri bədii qiraət olunub.

Sonda "Hüseyn Cavidin ev-muzeyi – 45" başlıqlı sərgiyə baxış olub.

# Mənim üçün yaxşı rəsm həyata, yaşama və gələcəyə töhfə verən əsərdir

Bəzən bir rəssamın fırçasını hərəkətə gətirən istedad əvəzinə, dərin bir hiss, yaşanmış bir ağrı olur. İlham İsmayılovun yaradıcılıq hekayəsi məhz belə başlanır. Onun sənət yolunun əsası uşaqlıq illərinə təsadüf edir və bu yolun başlanğıcında böyük bir itki dayanır: “Rəssamlığa marağım uşaqlıqdan yaranıb, beş yaşımda anamı itirdim. İlk yaratmaq istədiyim obraz onun portreti oldu. Hər şey o istəklə başladı. Mən o zaman heç anlamırdım ki, bu ilk rəsmlər, sadəcə, xatirə olacaq, yoxsa gələcəkdə mənim sənət yolumun əsasını qoyacaq. Amma zaman keçdikcə başa düşdüm ki, hər fırça toxunuşu, hər xətt anamın xatirəsini yaşatmaq üçün idi və bu mənim üçün həm bir dərs, həm də terapiya rolunu oynadı. Uşaqlıq ağrısının mənə verdiyi ən böyük hədiyyə isə yaradıcılığı kəşf etmək oldu. O vaxtdan bəri rəssamlıq mənim üçün daxili dünyamın əks olunmasıdır”.

Rəssamın əsərlərində həyatın ən dərin ziddiyyətləri, yəni xeyir və şər, sevgi və nifrət, ədalət və ədalətsizlik təqdim olunur: “Mənim üçün sənət yalnız gözəllik yaratmaq deyil. Mən rəsm vasitəsilə insan ruhunun ən gizli qatlarını açmaq, həyatın ikili təbiətini göstərmək istəyirəm. Mənim tablolarımda işıq və qaranlıq, ümid və ümidsizlik paralel şəkildə mövcuddur və hər detal izləyicini həm estetik, həm də düşüncə baxımından sınağa çəkir. Mən çalışıram ki, hər bir əsərim insanın duyğu və düşüncəsini oyatsın, onu düşündürsün və bəzən də içində gizlənmiş suallara cavab tapsın. Hər rəsm mənim üçün bir dialoqdur mən və izləyici arasında, həmçinin mənim iç dünyam ilə qələmlə yaratdığım obrazlar arasında”.

İlham İsmayılovun sözlərinə görə, o, yaradıcılığında sürrealist üsluba daha çox üstünlük verir: “Əsərlərim sürrealist üslubdadır. Bu üslub mənim şüuraltı düşüncələrimi, daxili təlatümlərimi və dünyaya




baxışımı ən geniş şəkildə ifadə etməyimə imkan verir. Sürrealizm mənim üçün texnika ilə yanaşı, bir dil, hisslərimi və düşüncələrimi sərbəst ifadə etməyimin vasitəsidir. Bu üslub mənə imkan verir ki, məntiqi qaydalara sığmayan, xəyalın sərhəd tanımadığı dünyaları da tablolarıma gətirim. Mən çalışıram ki, izləyici mənim əsərlərimdə həm tanış, həm də qəribə bir dünyanı görsün, onun içində öz duyğularını, qorxularını və ümidlərini tapsın”.



Rəssamın sənət yoluna ən böyük təsir göstərən məşhur isə ispan sürrealist rəssam Salvador Dali olub: “Dalinin sərhədsiz fantaziyası və simvolik dili məni çox ilhamlandırıb. Onun yaradıcılığı mənə göstərdi ki, fantaziya sərhəd tanımır və mən də əsərlərimdə sərhədsiz olmağa çalışıram. Onun tablolarındakı qeyri-real, lakin eyni zamanda mənalı təsvirlər məni düşündürürdü və mən öz işlərimdə də bunu əks etdirməyə çalışdım. Hər detalın, hər simvolun bir mənası var, amma bu mənalar izləyici üçün sərbəstdir. Hər kəs öz hekayəsini çıxara bilər. Dalinin sənəti mənə həm texniki, həm də ideya baxımından ilham verir”.

Bununla yanaşı, kubizm, barokko və modernizm də onun maraq dairəsindədir: “Bu müxtəlif sənət istiqamətlərinin sintezi mənim əsərlərimə həm klassik dərinlik, həm də müasir dinamika qatır. Kubizmin formaları, barokkonun dramatik işıq-qaranlıq kontrastları və modernizmin sərbəst ifadə imkanları mənə çox şey öyrədib. Mən çalışıram ki, bu müxtəlif təsirləri öz üslubuma uyğun birləşdirim və izləyici üçün həm vizual, həm də emosional cəlbedici əsərlər yaradım”.

İlham İsmayılov, həmçinin qara tonlarla ustalıqla işləməyi bacarması ilə də fərqlənir: “Rəng mənim üçün ifadənin ən canlı vasitəsidir. Hər rəngin öz emosional yükü var və mən bunu əsərlərimdə diqqətlə istifadə etməyə çalışıram. Amma eyni zamanda qara tonlarla işləmək mənə digər bir xüsusilik verir. Qara tonlarla işləmək həyatın ikilik üzərində qurulmasına işarədir. Mən burada ağlı-qaralı, xeyirli-şərli prosesləri izləyiciyə çatdırmaq istəyirəm. Bu tonlarda yaradılmış əsərlər ilk baxışda sadə görünə bilər, amma diqqətlə incələndikdə həyatın, insan ruhunun və daxili ziddiyyətlərin dərin qatlarını üzə çıxarır. Rəng və qara tonlar birləşəndə isə əsər həm vizual, həm də emosional olaraq daha zəngin olur”.

Qara qələm ilə işləmək isə rəssam üçün xüsusi səbir və diqqət tələb edir. Səhv etmək imkanı, demək olar ki, yoxdur: “Bu texnika zərgər dəqiqliyi tələb edir. Hər xətt diqqətlə çəkilməli, qələmin ucu teztez təmizlənməlidir. Bu mənə həm çətinlik, həm də məsuliyyət gətirir. Səhv etmək imkanı yoxdur deyə hər detalı daha diqqətlə düşünürəm. Bu texnika mənim səbrimi sınayır və eyni zamanda hər yeni əsərə ciddi yanaşmağı öyrədir. Mən hər yeni əsərə başlamazdan əvvəl süjeti beynimdə qururam, amma işlədikcə hisslərim də mənə yol göstərir. Bəzən ən gözəl nəticə planlaşdırılmamış anlarda, intuisiya ilə ortaya çıxır”.

İlham İsmayılovun yaradıcılığı yalnız yerli mühitlə məhdudlaşmayıb. O, Moskva və Türkiyədə yaşadığı dövrlərdə müxtəlif sərgilərdə iştirak edib və mükafatlar qazanıb: “Xarici ölkələrdə iştirak etdiyim sərgilər mənim sənət baxışımı genişləndirdi. Fərqli mədəniyyətlər, fərqli sənət mühiti mənə yeni baxış bucaqları açdı və əsərlərimə yeni çalarlar qatdı. Bu təcrübələr mənim üçün həm texniki, həm də ideya baxımından çox dəyərlidir. Mən çalışıram ki, hər yeni işimdə həm daxili dünyamı, həm də xarici mühitdən öyrəndiklərimi əks etdirim”.

Bu gün İlham İsmayılov həm qara xətlərin dili ilə, həm də rəngli palitralarla insan ruhunun ən dərin qatlarını danışdıran sənətkardır. Onun əsərlərində həm ağrı, həm ümid, həm qaranlıq, həm də işığa doğru bir çağırış var. Bir uşağın anasına olan həsrəti ilə başlayan bu yol, beynəlxalq uğurlarla və mükafatlarla zənginləşmiş peşəkar sənət yoluna çevrilib. Qara xətlərlə çəkilmiş hər detal həyatın ikili üzünü, insanın daxili dünyasını və ziddiyyətlərini izləyiciyə çatdırır və onun sənətini həm duyğusal, həm də fəlsəfi baxımdan unudulmaz edir.

# Ordubadı qanadları altına alan məğrur tarix yadigarı

Naxçıvanın qədim torpaqlarında, dağların qoynuna sığınan Ordubadın mərkəzi meydanına daxil olanda zamanın sınaqlarından məğrurcasına çıxmış bir tarix abidəsi ucalır ki, o hər bir kərpici ilə bir xalqın taleyini özündə daşıyır. Bu XVII əsrə aid olan və xalq arasında Şah Abbas məscidi kimi tanınan Ordubad Cümə məscididir. Məscidin xarici görünüşü uzaqdan insanı öz əzəməti ilə valeh edir. O, şəhərin ən hündür nöqtəsində qərar tutaraq sanki əsrlərdir, bütün Ordubadı öz qanadları altına alıb qoruyur. Naxçıvan-Marağa memarlıq məktəbinin bütün incəliklərini özündə cəmləşdirən bu bina öz memarlıq görkəmini bu günə qədər qoruyub saxlaya bilmişdir. Qapısının üzərində yerləşən və I Şah Abbasın fərmanının həkk olunduğu o tarixi daş lövhə bu uca binanın ruhun sığınacağı olması ilə yanaşı, həm də sarsılmaz bir dövlətçilik imzası daşıdığını göstərir. Bu əzəmətli abidənin girişini bəzəyən həmin yazı tarixin dərinliklərindən süzülüb gələrək məscidin həm mənəvi, həm də siyasi bir mərkəz olduğunu göstərir.

Lakin Cümə məscidinin ən böyük sirri onun yaşındadır. Məscidin ilk təməlinin nə zaman qoyulduğuna dair aşkar bir inşaat kitabəsi olmasa da, bu sükut abidənin əzəmətini daha da sirli edir. Lakin abidəni memarlıq dili ilə oxuyan akademik Ə.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadə kimi ustadların nəzərində bu mənzərə tamam başqa cür canlanıb. Onların elmi qənaətinə görə, bu gün qarşımızda ucalan, zəngin inşaat ənənələrinin süzgəcindən keçmiş o möhtəşəm zahiri sima, böyük ehtimalla, XVII yüzilliyin ilk baharında, Səfəvi memarlığının çiçəkləndiyi bir dövrdə öz son formasını tapıb.

Amma tarixin tozlu səhifələri daha dərin həqiqətləri gizlədir. Belə ki, məscidin inşa tarixi haqqında başqa fikirlər də var.

Seyyid Səbri tərəfindən “Şərq qapısı” qəzetinin 15 sentyabr 1926-cı il tarixli nömrəsində dərc edilən məqalədə qeydə alınan məlumata görə, 1902-ci ildə məscidin təmiri zamanı torpağın altından tapılan bir kərpic kitabə hər kəsi heyrətə salıb. Orada Hicri 111-ci il (Miladi 729-cu il) tarixi və “Harun” sözü yazılı imiş. Əgər bu tarixi məscidin inşa tarixi kimi qəbul etsək, onda onun VIII yüzilliyin əvvəllərində, Naxçıvan ərazisinin İslamlaşdığı ilk vaxtlarda yarandığı fikri ortaya çıxır. Təəssüf ki, Cümə məscidinin, eyni zamanda Ordubad şəhərinin özünün yaranması tarixi haqqında əsaslı və əhəmiyyətli fikir söyləməyə imkan verəcək bu kitabə günümüzə gəlib çatmayıb və aqibəti də məlum deyil.

Amma məscidin divarlarındakı 1902-ci ilə aid təmir tarixləri bizə hər bir kərpicin neçə yüzillik yaddaşı olduğunu aşkar edir.

Bərpa edilən bu məscidin çöl divarlarına baxdıqda zamanın sığalını görmək mümkündür. Günəşin şüaları bu qədim kərpiclərin üzərinə düşəndə bina gah qızılı, gah da tünd-qəhvəyi rəngə bürünərək ətrafa fərqli bir hava yayır. Lakin əsl möcüzə insanın addımını məscidin daxilinə atması ilə başlayır. İçəri daxil olanda xarici aləmin bütün səs-küyü bir anda yox olur və insanı dərin bir sükut, mənəvi bir hüzur qarşılayır. Məscidin daxili divarlarındakı həndəsi formalı ornamentlər bir-biri ilə rəqs edir sanki. Bu naxışlar Naxçıvanın ən qədim abidələrindəki rəsmləri xatırladır və bizi XII-XIII əsrlərə qədər uzanan uzaq keçmişə aparır. Hətta digər mənbələri nəzərə aldıqda daxili plan quruluşu və bəzi memarlıq elementləri çox daha qədimlərə gedib çıxır.

Məscidin içərisindəki o həndəsi naxışlara təkcə bəzək deyib keçmək olmaz, onlar bir xalqın təfəkkürünün, sənətə olan sevgisinin və mənəviyyatının daşlaşmış ifadəsidir. Pəncərələrdən süzülən zəif işıq bu qədim divarların üzərindəki hər bir xətti daha da canlandırır. Bu məkanda dayandıqda insan hiss edir ki, bu divarlar vaxtilə burada dua edən minlərlə insanın, təhsil alan mədrəsə tələbələrinin və hətta Şah Abbasın özünün fərmanını dinləyən ordubadlıların hekayələrini danışırlar.

Məscidin ətrafındakı meydan vaxtilə şəhərin nəbzi idi. Cənubda ucalan karvansaralar, səs-küylü dükanlar, qərbdəki zorxana və şimal-şərqdəki mədrəsə binaları bu məscidlə birlikdə vahid bir mərkəzi kompleks təşkil edirdi. İndi isə o böyük kompleksdən qalan bu möhtəşəm məscid binası bizim kimliyimizin, tariximizin və sarsılmazlığımızın simvoludur. Bəzən tariximiz təhrif edilsə də, bu daş yaddaşlar həqiqəti hər zaman qoruyub saxlayır. Bu məscid bizə sübut edir ki, biz Oğuz türküyük, bu torpaqlar bizim dədə-baba yurdumuzdur və bizim mədəniyyətimiz bu qədim divarların arasından bütün dünyaya səs salır. Ordubad Cümə məscidinin hər qarışı, hər kərpici bir dastan qədər uzun, bir nəfəs qədər yaxındır. O bizim dünənimiz, bu günümüz və gələcəyimiz arasında qurulmuş ən möhkəm körpüdür.



Elnurə CƏFƏROVA

# Şərurun “Yaşıl bazar”ı bu torpağın bərəkətini, kəndlinin zəhmətini özündə əks etdirən məkandır



Səhərin alaqaranlığında, rayonun hələ tam oyanmadığı bir məqamda uzaqdan gələn səs-küy bizə hara getməli olduğumuzu pıçıldayır. İnsan qaynağına, həyatın ən qaynar nöqtəsinə, yerli meyvə-tərəvəz bazarına doğru yönəlirik. Günəş üfüqdə tam görünməyib, amma yük maşınlarının səsi ətrafı bürüyüb. Burada həyat artıq çoxdan “oyanıb”. Şərurun kəndlərindən təzəcə gətirilmiş məhsullar boşaldılır. Üzərində hələ şeh damlaları olan pomidor, xiyar, kartof və müxtəlif meyvələr digər bölgələrdən gələn alıcılar tərəfindən yeşik-yeşik, torba-torba yük avtomobillərinə yığılır. Kimsə “Topdançılar gəldi”, – deyə səslənir.

Bazarın əsas qapısından içəri daxil oluruq. İlk hiss etdiyimiz rütubətli torpaq, təzə göyərti, xoş ədviyyat və meyvə qoxusudur. Bu qoxu keçmişin ən gözəl xatirələrini oyadır insanda, sanki uşaqlıq illərinin qayğısız yay günlərindən qalan bir meh kimi üzümüzə toxunur. Bazar, sadəcə, alış-veriş məkanı deyil, həm də özünəməxsus ritmi və qaydaları olan canlı bir aləmdir. Bir tərəfdə qırmızı rəngin ən parlaq tonlarında parıldayan Xələc pomidorları, digər tərəfdə üzərinə hələ indicə su çilənmiş, yamyaşıl, təravətli Kürkənd göyərtiləri, piştaxtaların bəzəyi olan Yengicə gilası, Daşarx hülüsü boylanır. Sanki hər bir piştaxta özlüyündə bir rəsm əsəridir. Satıcılar piştaxtaları istəyə uyğun şəkildə bəzəyir. Bu, sadə bir düzüm deyil, əsl vizual sənətdir. Ən qırmızı pomidorlar önə, bir az əzilmişlər isə “tomatlıq” adı altında arxa sıraya yerləşdirilir.

“Şərur bazarının öz qanunları var. Bizim üçün müştərinin gözü doymalıdır. Piştaxta gərək baxan kimi alıcını cəlb etsin”, – deyə bazarın 40 illik “sakini” Elşən Rzayev bildirir. Hava işıqlandıqca bazarda adam sayı da çoxalır. Bu dəfə gözə alverçilər yox, yerli alıcılar “dəyir”. Meyvələrin şirin qoxusu ilə yanaşı, hər tərəfdən bir nida ucalır, hər kəs öz məhsulunu tərifləyir. Amma bu səs-küy adamı yormur, əksinə, insana qəribə bir enerji verir: “Bu pomidordan yeməsən, peşman olarsan, lap dərman kimidir”, “Tərəvəzin şahı burada”, “Yaxın gəl, ucuzluqdu” və sair. Bazarın ən maraqlı tərəfi, əlbəttə ki, bazarlaşma mədəniyyətidir. Burada qiymət sümük kimi bərk deyil, hələ, əksinə, elastikdir. Hər bazarda olduğu kimi, Şərur bazarında da klassik bazar dialoqlarına qulaq veririk. Kimisi meyvə-tərəvəzi seçə-seçə qiymətini aşağı salmaq istəyir, kimisi də piştaxta arxasında ünsiyyət qurur, hal-əhval tutur. Ən əsası isə alıcı bazardan kiçik də olsa, endirimlə ayrılmaq istəyir. Belə kiçik “teatr tamaşası” hər dəqiqə, hər addımda təkrarlanır. Sonda həm satıcı, həm də alıcı razı qalır.

Naxçıvanın kənd təsərrüfatı mərkəzi sayılan Şərur rayonunun meyvə-tərəvəz bazarı digər bazarlardan bir cəhəti ilə fərqlənir. Burada vasitəçilər azdır, birbaşa bağdan topladığı məhsulu satan zəhmətkeş kəndlilər isə çoxdur. Yaşar dayı gülümsəyərək göyərtilərə su səpə-səpə deyir: “Şərur suyuna, torpağına görə birinci yerdədir. Naxçıvan Muxtar Respublikasında məhsulları ən çox yetişdirən də elə Şərurdur. Biz təkcə Şərur bazarında yox, aparıb məhsullarımızı Naxçıvan bazarında da satırıq. Culfadan, Ordubaddan və digər bölgələrdən məhsullarımızı alıb aparıb satırlar. Qiymətlərimiz uyğundur, məsələn, pomidoru 90 qəpiyə, xiyarı 60 qəpiyə, göyərtiləri özümüz yetişdiririk, bir dəstəsini 20 qəpiyə satırıq. Gecə saat 3-dən topdansatış başlayır, saat 8-ə kimi. 8-dən sonra topdan gətirənlər satıb qurtarır, sonra başlayırıq pərakəndə satmağa. Bizdə o qədər ucuzluq olur ki, digər regionlardan alverçilər gəlib buradan alır, üstünə 5-10 qəpik qoyub aparıb Naxçıvanda topdan satırlar. Deyək 500-600 kiloqram alanda, ona da 50-60 manat qalır. Bir də Şərurun suyuna görəmi, torpağına görəmi əkini həm davamlı olur, yəni möhkəm olur, dağılmır, həm də dadlı olur, yeməli olur”.

Satıcıların sözlərinə görə, yerli məhsullar bazara daha çox daxil olduğu üçün meyvə və tərəvəzlərin qiymətində ucuzlaşma var. Ümumilikdə, bazarda məhsul çeşidi kifayət qədər zəngindir və alıcıların seçimi genişdir. Yay mövsümünün davam etməsi ilə yaxın həftələrdə bazara daha çox məhsulun çıxacağı, qiymətlərin daha da ucuzlaşacağı gözlənilir. Satıcı Əli Əliyev deyir ki, bazarda yerli məhsullar çoxdur, yəni Naxçıvanın digər rayonlarının da tələbatını qarşılayır: “Bura böyük bazardır, əhalisi də çoxdur. Qiymətlər mövsümə görə dəyişir, amma ümumilikdə, münasibdir. Hamı ala bilir. Ucuzdur, hamı malını sata bilir. Naxçıvanda, demək olar ki, hər məhsulu burada tapmaq mümkündür. Bir dənə qarpız Nehrəmdən gəlir. Ona görə də həm rəqabət var, həm də qiymətlər aşağı olur”.

“Bazarın ən maraqlı tərəfi insanlarıdır”, – deyirlər. Lakin meyvələri gördükdə insan bir qədər fikrini dəyişir sanki. Burada hər meyvənin öz poetik dili var. Təbiətin ən gizli və dərin şirinliyini bağrında daşıyan əncir, içi qıpqırmızı bir sirr xəzinəsi olan qarpız, hər giləsində Günəşin istisini və yayın nəfəsini saxlayan üzüm, kəsiləndə ətrafa yayılan o təravətli qoxu ilə insana yaşamaq sevincini bəxş edən qovun, yay gecələrinin sərin mehini unutduran məşhur Şərur hülüsü piştaxtalara sanki nəfəs verir. Meyvələrini silə-silə bizimlə söhbətləşən satıcı Anar Tağıyev qeyd edir ki, bunların hamısı yerli Şərur məhsullarıdır, öz əkib-becərdikləri məhsullardır: “Ucuz və keyfiyyətlidir, dad-tamı yerindədir, çox dava-dərman da eləmirik. Hamısı orijinal, yerli məhsullardır. Naxçıvanın digər bölgələri – Culfadan, Şahbuzdan, Naxçıvanın elə özündən gəlib alırlar. Şərur məhsulları bazarın böyük hissəsini təşkil edir”.

Satıcılardan Mirələkbər Seyidov söhbətə müdaxilə edərək vurğulayır ki, Şərur Dərələyəz silsiləsinin ətəyində yerləşdiyinə görə, burada təbiət əlverişli, torpaq isə məhsuldardır. Bu da yetişdirilən məhsulların keyfiyyətinə öz təsirini göstərir. Elşən Rzayevin fikrincə isə kənd təsərrüfatı məhsullarına görə elə Şərur ən bərəkətli rayondur: “Demək olar ki, muxtar respublikanın kənd təsərrüfatı məhsullarının əsas hissəsini Şərur təmin edir. Məhsullarımız yerli, qiymətlərimiz isə münasibdir”.

Bazarın lap küncündə, səs-küydən bir az kənarda kiçik bir çayxana yerləşir. Buranı bazarın qeyri-rəsmi “mətbuat mərkəzi” də adlandırmaq olar. Satıcılar növbə ilə gəlir, armudu stəkanda kəklikotulu çaylarını içə-içə günün xəbərlərini müzakirə edirlər. Maraqlı baxışımızı sezən satıcı Elmar Rzayev yaxınlaşaraq söhbətə qoşulur: “Bazarda satılan otların bir qismini fermerlər özləri yetişdirir, bir qismini isə kənd sakinləri dağlardan, çöllərdən toplayıb gətirirlər. Şərurda əkin-biçinlə məşğul olan çoxdur. Elə buna görə də çayımız belə ətirlidir”.

Günorta saatları yaxınlaşdıqca piştaxtalar boşalır, tərəzilər susur, səslər yavaş-yavaş səngiyir. Amma bazarın ruhu hələ də buradadır. Çünki Şərur bazarında bir azdan yenidən səs-küy eşidiləcək, “axşam ucuzluğu” başlayacaq. Şərurun “Yaşıl bazar”ı təkcə ticarət mərkəzi deyil, burada torpağın bərəkəti, kəndlinin zəhməti və rayonun qədim qonaqpərvərlik ənənələri bir araya gəlir.

Piştaxta arxasında yalnız ticarət deyil, insan münasibətləri, səmimi söhbətlər və qarşılıqlı etibar da yaşayır. Elə buna görə də bu bazar, sadəcə, məhsul satılan yer yox, Şərurun gündəlik həyatını və zəhmət mədəniyyətini yaşadan ünvandır.

✍ **Ceyhun MƏMMƏDOV**

## Taxıl sahələrinin biçindən sonra yandırılması məhsuldarlığın azalmasına səbəb olur

Yay fəsli kəndlərdə özünəməxsus bir canlanma yaradır. Zəhmətin bəhrəsinin toplandığı, aylarla qulluq göstərilən zəmilərin biçildiyi bu dövr həm də kənd təsərrüfatında mühüm mərhələlərdən biridir. Lakin biçin mövsümündən sonra sahələrdə qalan bitki qalıqları ilə bağlı müxtəlif yanaşmalar ortaya çıxır. Bəzi hallarda həmin qalıqların yandırılması üsuluna üstünlük verilir. Asan və sürətli yol kimi görünən bu addım isə torpağın gələcək vəziyyəti, ətraf mühit və təhlükəsizlik baxımından bir sıra suallar yaradır. Bəs biçindən sonra taxıl sahələrinin yandırılması torpağa necə təsir edir? Növbəti əkin mövsümündə bu hansı nəticələrə səbəb ola bilər? Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi



şöbəsinin aparıcı məsləhətçisi Teyfə Qasımova ilə həmsöhbət olduq.

Müsahibim bildirdi ki, taxıl sahələrinin biçini başa çatdıqdan sonra kövşənliyin yandırılması yolverilməzdir. Bu hal torpağın münbitliyinə ciddi zərər vurmaqla yanaşı, ekoloji tarazlığın pozulmasına və fermerlərin iqtisadi itkilərlə üzləşməsinə səbəb olur. Bitki qalıqları torpaq üçün ən qiymətli üzvi maddə və qida elementləri mənbələrindən biridir. Onların torpaqda saxlanılması humusun artmasına, torpaq strukturunun yaxşılaşmasına, nəmliyin qorunmasına, faydalı mikroorqanizmlərin fəaliyyətinin gücləndirilməsinə və nəticədə, məhsuldarlığın yüksəlməsinə şərait yaradır.

Bitki qalıqlarının yandırılması zamanı torpaqda yaşayan milyonlarla faydalı mikroorqanizm məhv olur, torpağın bioloji fəallığı zəifləyir və münbitliyi azalır. Mütəxəssislərin hesablamalarına görə, növbəti əkin ilində həmin sahədə məhsuldarlıq 20-30 faizədək aşağı düşə bilər. Bəzən kövşənliyin yandırılması zərərvericilərə qarşı mübarizə vasitəsi kimi qiymətləndirilir. Lakin bu, düzgün yanaşma deyil. Çünki dənli bitkilərin əksər zərərvericiləri yanğın zamanı torpağın alt qatına keçərək sağ qalır, əvəzində isə torpağın faydalı canlıları məhv olur.

Biçindən sonra samanın xırdalanaraq mulça şəklində sahəyə yayılması və ya yandırılmadan sahədən çıxarılması daha məqsədəuyğundur. Sonrakı mərhələdə torpaq becərilməli, müvafiq gübrələr tətbiq edilməli və növbəti əkin mövsümünə hazırlıq işləri aparılmalıdır. Bu üsul torpaqda nəmliyin qorunmasına, eroziyanın qarşısının alınmasına və məhsuldarlığın yüksəldilməsinə xidmət edir.

Xüsusilə vurğulanmalıdır ki, əkin sahələrinin yandırılması qanunvericiliklə qadağandır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 244-1-ci maddəsinə əsasən əkin yerlərini yandıran fiziki şəxslər 400-600 manat, vəzifəli şəxslər 1500-2000 manat, hüquqi şəxslər isə 5000-6000 manat məbləğində cərimə edilirlər.

Torpağın münbitliyinin qorunması, məhsuldarlığın artırılması və ətraf mühitin mühafizəsi hər bir torpaq istifadəçisinin məsuliyyətidir. Taxıl sahələrinə düzgün qulluq növbəti əkin üçün yüksək məhsuldarlıq deməkdir.

✍ **Günay HACIYEVA**

# İlmələrdə yaşayan tarix



Naxçıvanın qədim abidələrindən biri olan Əlincəqala ətrafı tarixboyu yalnız müdafiə məkanı deyil, həm də mədəniyyət və sənət ənənələrinin formalaşdığı bir mühit olub. Bu ərazidə yerləşən yaşayış məntəqələrində, xalq sənətləri, xüsusilə xalçaçılıq sənəti inkişaf edərək nəsildən-nəslə ötürülüb.

"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində nümayiş olunan xalça bu zəngin ənənənin parlaq nümunələrindən biridir. Ümumiyyətlə, Azərbaycan xalçaları texniki xüsusiyyətlərinə görə xovlu, xovsuz və süjetli növlərə ayrılır. Əlincəqala muzeyində nümayiş olunan bu nümunə isə xovlu xalçalar qrupuna aiddir. Xalçanın göstəricisinə əsasən xalça 1900-cü ildə Əlincə kəndində hazırlanıb, xovlu xalça növünə aid edilib. Bu fakt onun ənənəvi toxuma üsulu ilə hazırlandığını və yüksək sənətkarlıq səviyyəsini əks etdirdiyini göstərir.

Xalçanın bədii quruluşu diqqətlə nəzərdən keçirildikdə onun kompozisiyasının klassik prinsiplərə uyğun şəkildə formalaşdırıldığı görünür. Mərkəzi hissədə yerləşən iri həndəsi formalı göllər əsas kompozisiya elementini təşkil edir. Bu göllərin ətrafında yerləşən ornamentlər və haşiyə zolaqları ümumi görünüşə ritm və ahəng qatır. Xüsusilə haşiyələrdə təkrarlanan naxışlar xalçanın bütövlüyünü qoruyaraq ona estetik tamlıq verir.

Xalça üzərində yer alan zoomorf motivlər isə xüsusi maraq doğurur. Kiçikölçülü heyvan təsvirləri qədim insanların təbiətə münasibətini, inanclarını və gündəlik həyatını simvolik şəkildə əks etdirir. Bu motivlər xalçanı, sadəcə, bədii nümunə deyil, eyni zamanda mənəvi və ideoloji məzmun daşıyan bir sənət əsərinə çevirib.

Rəng palitrasında, əsasən, qırmızı, torpaq və açıq çalarların üstünlük təşkil etməsi xalçanın təbii boyalarla rənglədiyini göstərir. Zaman keçdikcə bəzi hissələrdə solmalar müşahidə olunsa da, bu hal onun qədimliyini və orijinallığını daha da ön plana çıxarır.

"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində qorunan bu xalça yalnız dekorativ əşya kimi deyil, həm də tarixi-mədəni məlumat daşıyıcısı kimi böyük əhəmiyyət kəsb edir. O, toxunduğu dövrün sosial mühitini, insanların zövqünü və sənətə olan münasibətini öyrənmək baxımından qiymətli mənbədir.

Nəticə etibarilə, hər bir xalça yalnız ilmələrin birləşməsi deyil, o, xalqın yaddaşı, zəhməti və ruhunun ifadəsidir. Əlincəqala xalçası da, bu mənada, keçmişdən bu günə uzanan canlı bir körpü kimi milli mədəniyyətimizin dəyərli incilərindən biri olaraq öz əhəmiyyətini qoruyub saxlayır.

Bu xalça ilmə-ilmə toxunmuş tarix kimi bu gün də milli kimliyimizin canlı ifadələrindən biri olaraq qalır.

Hər ilməsində bir dövrün izi, hər naxışında isə bir xalqın ruhu yaşayır. Bu xalçaya baxdıqca anlayırıq ki, mədəniyyət təkcə kitab səhifələrində yox, həm də sənətin içində nəfəs alır. Onu qorumaq isə, sadəcə, keçmişə hörmət deyil, gələcək nəsillərə borcumuzdur.

Sanki bizə pıçıldayır: "Keçmişi unutma, mən buradayam!"

**Layimə ALLAHVERDİYEVA**
***"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin kiçik elmi işçisi***

## Yer təkindən istifadə ilə bağlı 1 sentyabr 2026-cı il tarixdə saat 11$^{00}$-da keçiriləcək hərracın elanı

## Hərrac auksion formasında keçiriləcəkdir

***Şahbuz rayonu "Şahbuz I" qum-çınqıl yatağı***

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəz koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Şahbuz I | LOT-1 | 46 500 m$^3$ | 1,55 ha | qum-çınqıl | 2 ilədək | X-4364148.27 Y-552549.86 | 4650 | 465 | 540 |

Hərracın keçiriləcəyi ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 (Hərracların Təşkili Mərkəzi PHŞ-nin inzibati binası).

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10% miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (LOT üzrə) müəyyən edilir:
   – ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;
   – ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;
   – ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.
4. "Vergiödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağmədən mühəndisi və ya 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır. İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 24 avqust 2026-cı il saat 18$^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanında (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə (bundan sonra "ərizə") təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər LOT üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 **(Əlaqələndirici şəxs: Rəsulov Ramiz, telefon: (036) 545-34-85, 050-723-85-25)** ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır. Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10% miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## Elanlar

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200746511) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200878081) ilə birləşmə yolu ilə yenidən təşkil olunduğunu elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42$^{A}$, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Naxçıvan Uşaq Bərpa Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0200364601) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42$^{A}$, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Naxçıvan Əlillərin Bərpa Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0200405281) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42$^{A}$, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0200572741) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42$^{A}$, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin tabeliyində "Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzi" publik hüquqi şəxs (VÖEN: 0201068691) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200746511) tabeliyindən "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin (VÖEN: 0200120911) tabeliyinə keçdiyini elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 42$^{A}$, AZ7000***
***Telefon: (+99436) 545-22-69***
***E-mail: nmr_dtsera@sosial.gov.az***

***

"Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200878081) "Naxçıvan Muxtar Respublikasında əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 25 nömrəli Qərarının tələblərinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabelyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxs (VÖEN: 0200746511) ilə birləşmə yolu ilə yenidən təşkil olunduğunu elan edir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, AZ7000***
***Telefon: (+99436) 550-53-81***
***E-mail: info@nits.gov.az***

***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 iyul 2026-cı il tarixli 26 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 61.1-ci maddəsinin tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti barədə məlumat elan olunur.

Kreditorlar Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinə qarşı öz tələblərini ləğvetmə haqqında ilk məlumatın dərc edildiyi tarixdən etibarən 60 gün müddətində Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə – AZ7000, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 21 ünvanına təqdim edə bilərlər.

Ləğvedici: Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi.

***Ünvan: AZ7000, Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 21***
***Əlaqə telefonu: (036) 550-33-33***
***E-mail: info@nmaliyye.gov.az***

## İtmişdir

Şərur rayonu, İbadulla kənd sakini Rzayev Məhərrəm Əlicabbar oğlunun adına olan JN-056$^{A}$ nömrəli, 10208005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kəndində yaşamış Hüseynov Hüseyn Qasım oğlunun adına olan JN-1008$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dizə kənd sakini Nəsibov Sabir Nəsib oğlunun adına verilmiş JN-87$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Cəfərov Əbülfəz Cahangir oğlunun adına verilmiş JN-101$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kənd sakini Məcnunov Nəsrəddin Kərəm oğlunun adına verilmiş JN-79 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək qəsəbə sakini Qədimalıyeva Hürzad Qədimalı qızının adına olan JN-499$^{A}$ nömrəli, 10301018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Məmmədov İlham Cəbrayıl oğluna məxsus JN-1995$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğancıq-Müslüm kənd sakini İbrahimov Etibar Hidayət oğlunun adına olan JN-94 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Rzayeva Səkinə Fərman qızının adına olan JN-1450$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Quliyev Kamran Hüseyn oğlunun adına olan JN-384$^{A}$ nömrəli, 10200078 kodlu "Torpağın mülkiyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Yaycı kənd sakini Nadirov Zakir Əhməd oğluna məxsus JN-139$^{A}$, JN-139$^{B}$ və JN-139$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kənd sakini Quliyev Sərdar Sabir oğlunun adına olan JN-923$^{A}$ nömrəli, 10200048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
**RƏMZİ TAHİRLİ**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
***E-mail: info@serqqapisi.gov.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

**Çapa imzalanmışdır 00:00**
**Tiraj: 550. Sifariş № 154**

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov, Rafiq Təhməzov**

***Dizayner:*** **Həbibə Allahverdiyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*